AVTOMOBİL BAZARINDA SEÇİMLƏR DƏYİŞİR

Bazarda Çin markalarına maraq artır. Paralel olaraq yerli istehsal avtomobillərin mövqeyi güclənir.

Bu ilin oktyabr ayında avtomobillərin median qiyməti 3,7 faiz artaraq 19 500 manata çatıb. Lakin eyni dövrdə sabit struktur indeksi cəmi 0,4 faiz yüksəlib, sentyabr və oktyabr aylarında satışda qalan avtomobillərin orta qiyməti isə 1,5 faiz azalıb. Oktyabrda avtomobil elanlarının sayı yeddi faiz azalaraq 37 531-ə düşüb.

SƏHİFƏ 13-də





MEHRİBAN ƏLİYEVA VYETNAMIN VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞÜB

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Vyetnamın vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb. Görüşdə iki ölkə arasında münasibətlərin iki xalqın bir neçə onillik tarixi olan dostluğuna əsaslanaraq inkişaf etdiyi vurğulanıb.

SƏHİFƏ 2-də



BMT-DƏN AZƏRBAYCANA YÜKSƏK QİYMƏT

Azərbaycan BMT-nin EHİİ üzrə 2026-cı il hesabatında 38-ci yerə yüksəlib. Bu, ölkənin rəqəmsal transformasiya sahəsində əldə etdiyi nəticələrin beynəlxalq səviyyədə qiymətləndirilməsi baxımından mühüm amildir.

SƏHİFƏ 7-də



KİRAYƏ BAZARINDA SÖKÜNTÜ EFFEKTİ

Bakıda kirayə mənzil qiymətləri artmaqda davam edir. Mənzillərin satış qiymətlərinin yüksəlməsi, köhnə yaşayış binalarının sökülməsi və tələbə axını bazarda qiymətlərə təsir göstərən əsas amillər sırasındadır.

SƏHİFƏ 9-da

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

21 NOYABR ŞƏNBƏ 2026 № 44 (4295) Qiyməti - 60 qəpik www.kaspi.az



HAZIRDA ÜZƏRİNDƏ İŞ GEDƏN ÇOXLU ÖNƏMLİ LAYİHƏLƏR VAR



STRATEJİ TƏRƏFDAŞLIĞIN YENİ ÜFÜQLƏRİ

Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasına səfər edib. Keçirilən görüşlərdə iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi qeyd olunub.

BAŞ NAZİR LE MİNH HUNQLA GÖRÜŞ


Prezident İlham Əliyev Baş nazir Le Minh Hunq ilə görüşdə bildirib ki, münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib: “Cənab Prezidentin keçənilki səfəri bizim əlaqələrimizin inkişafı baxımından həlledici olmuşdur”.

TEZLİKLƏ VYETNAM SƏFİRLİYİ AÇILACAQ

Le Minh Hunq Azərbaycanda tezliklə Vyetnamın səfirliyinin açılacağını bildirib. O, vyetnamlı mütəxəssislərin Azərbaycanda neft sahəsində təhsil aldıqlarını xatırladıb, həmin şəxslərin ölkənin inkişafında mühüm rol oynadıqlarını deyib.

SƏHİFƏ 2-də

“Milli kino yalnız büdcədən asılı qalmamalıdır”



BÜDCƏDƏN BÖYÜK EKRANA

Büdcə layihəsində kinonun inkişafı üçün ümumilikdə 12,1 milyon manat vəsait nəzərdə tutulub. Bunun 3,1 milyon manatı Kino Agentliyinin və Dövlət Film Fondunun saxlanılmasına, doqquz milyon manatı isə Azərbaycan kinosunun davamlı inkişafının təmin edilməsinə yönəldiləcək. Bəs nəzərdə tutulan maliyyə dəstəyi yeni filmlərin istehsalına necə təsir göstərəcək?

SƏHİFƏ 12-də



AVROPANIN ŞƏRQƏ AÇILAN QAPISI

Almaniyanın XİN başçısının ölkəmizə səfəri Avropanın strateji gündəmində Cənubi Qafqaz-Mərkəzi Asiya xəttinin getdikcə daha prioritet mahiyyət daşıdığını göstərir. Bu xətdə əsas söz sahibi isə məhz Azərbaycandır.

SƏHİFƏ 4-də



ŞAGİRD QORUNUR, BƏS MÜƏLLİM?

Son vaxtlar məktəblərdə şagirdlərin hüquqlarının qorunması ilə bağlı müəllimlərin üzərinə əlavə öhdəliklər qoyulur. Bunun fonunda müəllimlərin də hüquqlarının, nüfuzunun qorunmasının vacibliyi önə çəkilir.

SƏHİFƏ 8-də



QALSTUK VƏ MİLAD MÖCÜZƏSİ İLƏ TANINAN ŞƏHƏR

Zaqrebə çatmağın müxtəlif yolları var, çünki şəhər region üçün vacib nəqliyyat mərkəzidir. Xarici turistlər üçün ən sürətli və ən populyar seçim hava yoludur, lakin geniş dəmir yolu və avtomobil şəbəkəsi də rahat marşrutlar təklif edir.

SƏHİFƏ 15-də



SOCAR-ın Rumıniyada 110-cu YDM-i
SƏHİFƏ 10-da



Tikinti sektorunda geriləmə
SƏHİFƏ 6-da



Qubanın alma bağları niyə kiçilir?
SƏHİFƏ 11-də



Kartdan-karta köçürmələr risk mənbəyi kimi
SƏHİFƏ 14-də



Kapitanın tarixə çevrilən hekayəsi
SƏHİFƏ 16-da



Mehriban Əliyeva Vyetnamın vitse-prezidenti ilə görüşüb


Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Vyetnamın vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb. Görüşdə iki ölkə arasında münasibətlərin iki xalqın bir neçə onillik tarixi olan dostluğuna əsaslanaraq inkişaf etdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycanın və Vyetnamın dövlət başçılarının qarşılıqlı səfərləri müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə, iki ölkə arasında siyasi etimadın güclənməsinə səbəb olub. Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən il Azərbaycana səfəri zamanı iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunmasının Azərbaycan-Vyetnam əlaqələrini yeni səviyyəyə yüksəltdiyi bildirilib.

Vyetnamın vitse-prezidenti Vo Ti An Suan Azərbaycana səfərlərini, o cümlədən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Bakıda keçirilən Zirvə Görüşündə iştirak üçün oktyabrda Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşünü məmnunluqla xatırlayıb.

Görüşdə xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Bu xüsusda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ötən il Vyetnama səfəri zamanı Hanoy Ticarət və Turizm Kollecinə, görmə qabiliyyəti məhdud uşaqlar üçün orta məktəbə göstərilən yardımın iki xalq arasında dostluğun bariz nümunəsi olduğu vurğulanıb.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya ənənəvi Vyetnam qəhvəsinin hazırlanma üsulu nümayiş olunub.



STRATEJİ TƏRƏFDAŞLIĞIN YENİ ÜFÜQLƏRİ

Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasına səfər edib. Keçirilən görüşlərdə iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi qeyd edilib.

Prezident İlham Əliyev noyabrın 20-də Vyetnam Sosialist Respublikasına səfər edib. Dövlət başçısı Hanoyda Vyetnam Sosialist Respublikasın qurucusu Ho Şi Minin məqbərəsini ziyarət edib. Prezident İlham Əliyev Ho Şi Minin xatirəsinə ehtiramını bildirib, məqbərənin önünə əklil qoyub. Dövlət başçısı həmçinin "İnqilab şəhidləri" abidəsini ziyarət edib.

BAŞ NAZİR LE MİNH HUNQLA GÖRÜŞ

Səfər çərçivəsində Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Baş naziri Le Minh Hunq ilə görüşü olub.

Baş nazir Le Minh Hunq bildirib ki, 2025-ci ilin mayında Baş katib, Prezident To Lamın Azərbaycana tarixi dövlət səfəri və ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi əməkdaşlığımızın yeni zirvələrə çatması və daha əhəmiyyətli, səmərəli olması üçün bir sıra imkanlar yaradıb: "Hər iki ölkənin bərpaolunan enerji - külək, Günəş enerjisi, ticarət, daşınmaz əmlak və turizm şirkətləri fəaliyyətə başlayıb. Hökumətlərimiz müdafiə, təhlükəsizlik, enerji kimi sahələrdə bütün potensial imkanlarımızı konkret nəticələrə çevirmək, xalqlarımız üçün praktiki faydaları təmin etmək məqsədilə hər zaman çiyin-çiyinə çalışır".

"MÜNASİBƏTLƏRİMİZ STRATEJİ TƏRƏFDAŞLIQ SƏVİYYƏSİNƏ YÜKSƏLİB"

Prezident İlham Əliyev bildirib ki, münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib: "Cənab Prezidentin keçənilki səfəri bizim əlaqələrimizin inkişafı baxımından həlledici olmuşdur. O, məni nəzakətlə ölkəsinə dəvət etdi və mən də dəvəti böyük məmnuniyyət hissi ilə qəbul etdim və bir ildən sonra ölkənizdə səfərdəyəm.

Siz ikitərəfli gündəliyimizin çox önəmli məsələlərinə toxundunuz. Münasibətlərimizin tarixi boyunca ölkələrimiz arasında yüksəksəviyyəli həmrəylik və dostluq mövcud olub. Siz Vyetnam Prezidentinin 1959-cu ildə Azərbaycana səfərini qeyd etdiniz. Prezident Ho Şi Min əziz qonaq kimi qarşılanmışdı. Azərbaycan xalqı sizin müstəqillik və azadlıq uğrunda mübarizənizi, xalqınızın işğal dövründə göstərdiyi qəhrəmanlığı qətiyyətlə dəstəkləyib. 2020-ci ildə ərazimizin işğaldan azad edilməsi uğrunda müharibə zamanı biz Vyetnam xalqı və Hökuməti tərəfindən eyni həmrəyliyi gördük, siz bizə güclü dəstək göstərdiniz, o cümlədən BMT Təhlükəsizlik Şurasında.

Sosial-iqtisadi sahəyə gəlincə, müsbət dinamika müşahidə edirik. Lakin əlbəttə, əldə olunan nəticələrlə kifayətlənə bilmərik. Buna baxmayaraq, Sizin qeyd etdiyiniz kimi, hazırda üzərində iş gedən çoxlu önəmli layihələrimiz var, o cümlədən enerji təhlükəsizliyi və daşınmaz əmlak sahələrində".

Azərbaycanın neft məhsullarının Vyetnama ixracı



Prezident İlham Əliyev 2026-cı ilin oktyabrında Vyetnamın Vitse-prezidenti Vo Thi An Suanın AQEM-in Bakıda keçirilən Zirvə Görüşündə iştirak etmək üçün ölkəmizə səfərini xatırladaraq, onunla apardığı müzakirələrin əhəmiyyətini qeyd edib.

Baş nazir Le Minh Hunq Azərbaycanda tezliklə Vyetnamın səfirliyinin açılacağını bildirib.

Baş nazir vyetnamlı mütəxəssislərin Azərbaycanda neft sahəsində təhsil aldıqlarını xatırladıb, həmin şəxslərin bu gün də Vyetnamın inkişafında mühüm rol oynadıqlarını deyib. Söhbət zamanı enerji sahəsində əməkdaşlığa toxunulub, xüsusilə Azərbaycanın neft məhsullarının Vyetnama və Vyetnam ərazisindən region ölkələrinə ixrac imkanları, birgə istehsal sahələri ilə bağlı məsələlər müzakirə olunub. Baş nazir Azərbaycanın regionda önəmli mövqeyə malik ölkə olduğunu vurğulayıb. Bu xüsusda Vyetnamın Azərbaycanın dəstəyi ilə region ölkələri ilə əməkdaşlığının inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

PARLAMENTLƏR ARASINDA MÜSBƏT VƏ NƏTİCƏYÖNÜMLÜ DİALOQ

Səfər çərçivəsində Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının sədri Çan Tan Man ilə də görüşüb.

Prezident İlham Əliyev ölkələrimizin parlamentləri arasında dialoqun həmişə çox müsbət və nəticəyönümlü olduğunu vurğulayaraq, Azərbaycan Milli Məclisi və Vyetnam Milli Assambleyası sədrlərinin görüşünün parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından rolunu qeyd edib.

Qoşulmama Hərəkatının parlamentlərarası platformasının Azərbaycanın təşəbbüsü ilə yaradıldığını xatırladan dövlət başçısı bu xüsusda iki ölkənin parlament strukturları arasında əməkdaşlığı vurğulayıb.

TARİXİ DOSTLUQDAN YENİ İQTİSADİ FÜRSƏTLƏRƏ

Prezident İlham Əliyev: "Bu gün Vyetnam Cənub-Şərqi Asiyada dinamik inkişaf edən ölkədir, Azərbaycan isə Cənubi Qafqazda əsas logistika və energetika habıdır. Qüvvələrimizi birləşdirərək yeni bazarlara çıxa, birgə layihələr həyata keçirə, biznes və investisiya üçün əlavə imkanlar yarada bilərik".



FUAD ABASOĞLU

Prezident İlham Əliyev Vyetnam Xəbər Agentliyinə (VNA) müsahibə verib. Dövlət başçısı Azərbaycan-Vyetnam əlaqələrinin mövcud durumu və gələcək əməkdaşlıq perspektivləri ilə bağlı sualları cavablandırıb.

MÜNASİBƏTLƏRİN BAŞLANĞIC NÖQTƏSİ

Prezident bildirib ki, Azərbaycan-Vyetnam münasibətlərinin başlanğıc nöqtəsi 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya unudulmaz səfəri idi: "1983-cü il əsl sıçrayışla əlamətdar oldu. Həmin vaxt Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin başçılığı ilə sovet nümayəndə heyəti Vyetnama səfər etdi. Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü ilə bu səfərin müddəti səkkiz günə qədər uzadıldı və ölkənin əsas regionlarını əhatə etdi. Həmin vaxt əldə olunan razılaşmalar Vyetnam iqtisadiyyatının inkişafına güclü təkan verdi və çoxillik əməkdaşlığın istiqamətini müəyyənləşdirdi.

Möhkəm, zamanın sınaqlarından çıxmış dostluğa əsaslanaraq, biz əlaqələrin gücləndirilməsini və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsini ardıcıl şəkildə davam etdirdik. 2014-cü ildə mənim Vyetnama ilk dövlət səfərim baş tutdu, artıq 2015-ci ilin mayında isə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycana cavab səfəri etdi".

ƏLAQƏLƏRİ KEYFİYYƏTCƏ YENİ SƏVİYYƏYƏ QALDIRAN MÜHÜM SƏNƏD

Prezident qeyd edib ki, keçən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana ilk dövlət səfəri dövlətlərarası münasibətlərimizdə yeni fəsil açıb: "Aparılan konstruktiv danışıqlar energetika və investisiyalardan müdafiə və kibertəhlükəsizliyə qədər istiqamətlərin geniş spektrini əhatə etdi. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi".

Tranzit daşımaları sahəsində ikitərəfli əməkdaşlıq

Dövlət başçısı iqtisadi-ticari münasibətlərə də toxunub. Bildirib ki, Azərbaycan-Vyetnam iqtisadi-ticari əlaqələri ardıcıl şəkildə inkişaf edir. 2025-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsi 150 milyon dollardan artıq olub. Bununla yanaşı, bu göstərici hələ ki, real imkanları əks etdirmir: hər iki tərəf qarşılıqlı ticarətdə əhəmiyyətli artım üçün böyük potensiala malikdir:

"Sovet İttifaqı dövründən bəri tarixən tərəfdaşlığımızın təməlini təşkil edən neft sektoru qarşılıqlı fəaliyyətin əsas istiqaməti statusunu qoruyub saxlayır. Bu kontekstdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. 2025-ci ildə imzalanmış Anlaşma Memorandumu neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi, texniki xidmətlər və mütəxəssis hazırlığı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutur.

Vyetnam biznesinin Azərbaycan iqtisadiyyatında iştirakı da ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir. Tikinti və infrastrukturun inkişafı, həmçinin Günəş və külək enerjisi sahələrində layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirən "ROX Group" bunun bariz nümunəsidir".

Prezident qeyd edib ki, tranzit daşımaları sahəsində də müsbət dinamika müşahidə olunur. 2026-cı ilin yanvar-sentyabr aylarında bu daşımaların həcmi 2025-ci ilin eyni dövrü ilə müqayisədə təxminən altı dəfə artıb və 8 min tondan çox olub: "Azərbaycanın nəqliyyat və logistika infrastrukturundan Orta Dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə Vyetnamdan Avropaya və əks istiqamətdə yüklərin daşınması üçün səmərəli şəkildə istifadə etmək olar. Bu, ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərində rolunu gücləndirməklə yanaşı, əlavə iqtisadi dəyər və əməkdaşlıq üçün yeni imkanlar yaradılmasına və ikitərəfli əlaqələrin genişlənməsinə sanballı töhfə verəcək".

"HEYDƏR ƏLİYEV FONDU BU PROSESDƏ XÜSUSİ ROLA MALİKDİR"

Humanitar, təhsil və mədəni əlaqələrdən də danışan Prezident İlham Əliyev bildirib ki, humanitar əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi birləşdirən möhkəm körpü rolunu oynayır. Onilliklər ərzində bu əlaqələr təhsil təşəbbüsləri, xeyriyyə layihələri və müntəzəm mədəni mübadilə vasitəsilə davamlı olaraq möhkəmləndirilib:

"Heydər Əliyev Fondu bu prosesdə xüsusi rola malikdir və Vyetnamla humanitar münasibətlərin dərinləşməsinə fəal surətdə kömək edir. Fondun fəaliyyət istiqamətləri Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla infrastruktur təşəbbüslərindən tutmuş müxtəlif təhsil proqramlarının dəstəklənməsinə qədər geniş spektri əhatə edir.

Fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci ildə Vyetnama səfəri bu əlaqələrin möhkəmləndirilməsində mühüm addım olub".

Prezident sonda qeyd edib ki, bu gün Vyetnam Cənub-Şərqi Asiyada dinamik inkişaf edən ölkədir, Azərbaycan isə Cənubi Qafqazda əsas logistika və energetika habıdır: "Qüvvələrimizi birləşdirərək yeni bazarlara çıxa, birgə layihələr həyata keçirə, biznes və investisiya üçün əlavə imkanlar yarada bilərik. Sözsüz ki, əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir".

AVROPANIN ŞƏRQƏ AÇILAN QAPISI

Almaniyanın XİN başçısının ölkəmizə səfəri Avropanın strateji gündəmində Cənubi Qafqaz-Mərkəzi Asiya xəttinin getdikcə daha prioritet mahiyyət daşıdığını göstərir. Bu xətdə əsas söz sahibi isə məhz Azərbaycandır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

"Avropa Siyasi Birliyi"nin noyabrın 12-də Dublində keçirilən Zirvə Toplantısının ardından Avropa İttifaqının əsas iqtisadi lokomotivi sayılan Almaniyanın xarici işlər naziri Yohan David Vadeful Azərbaycana səfər etdi. Bu səfər bir daha rəsmi Bakının Avropa ilə əməkdaşlıq gündəliyinin intensivliyini, çoxşaxəliliyini və ölkəmizin "köhnə qitə" üçün nə dərəcədə əhəmiyyətli olduğunu ortaya qoydu.

Qeyd edək ki, səfər çərçivəsində Yohan David Vadeful Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. Söhbət zamanı bu ilin iyulunda dövlət başçısının Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində keçirilən görüşlər və aparılan səmərəli müzakirələr məmnunluqla xatırlanıb. Həmin səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə", həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamənin ikitərəfli əməkdaşlığın möhkəmlənməsində roluna toxunulub. Görüşdə iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi, sərmayələr, biznes, ənənəvi və alternativ enerji, bağlantılar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

"AZƏRBAYCAN ALMANİYANIN STRATEJİ TƏRƏFDAŞIDIR"

Almaniyanın XİN başçısının görüşünün detalları, ikitərəfli əməkdaşlıqda üzərində xüsusilə dayanılan məqamlar isə Yohan David Vadefulun azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşündən sonra birgə mətbuat konfransında açıqlanıb.

C.Bayramov Bakı-Berlin əlaqələrini dostluğa, beynəlxalq hüquqa əsaslanan münasibətlər kimi xarakterizə edib. Onun sözlərinə görə, Azərbaycan və Almaniyanın xarici işlər nazirləri Azərbaycan-Ermənistan normallaşma prosesini müzakirə ediblər.

İkitərəfli əməkdaşlıqda Almaniyanın gündəmini isə elə Yohan David Vadefulun özü açıqlayıb. O, sülh gündəliyi ilə bağlı baş verənləri təkcə iki ölkənin hökumətləri üçün deyil, həm də Avropa üçün münaqişələrə son qoymağın, kompromislər tapmağın və beynəlxalq hüquqa əməl olunmasını təmin etməyin mümkün olduğunu nümayiş etdirmək nöqteyi-nəzərindən tarixi fürsət adlandırıb.

Yohan Vadeful Azərbaycanı Almaniyanın strateji tərəfdaşı adlandırıb.



Tərəflər arasında enerji təchizatı müzakirələri

Bu gün Azərbaycanın Avropanın düşdüyü çətin durumda enerji təchizatı məsələsində önəminin artdığını istər Dublin sammiti, istərsə də son aylarda Bakıya reallaşan səfərlər bir daha təsdiqləyir. Bu məsələ Bakı-Berlin gündəmində də əsas xətlərdən biridir.

Rəsmi bəyanatlarda da vurğulandığı kimi, enerji təchizatı məsələsi Almaniyanın Azərbaycanla əməkdaşlığının əsas istiqamətlərindən biridir. "Azərbaycan - bizim enerji iqtisadiyyatımızın əvəzolunmaz dayağıdır və biz bu sahədə uğurlu, etibarlı əməkdaşlığa görə təşəkkür edirik. Hesab edirəm ki, indi biz bu əməkdaşlığı konkret olaraq genişləndirməliyik. Biz bu məsələni müzakirə etdik", - Y.Vadeful bildirib.

MƏRKƏZİ ASİYA XƏTTİNDƏ ƏSAS DAYANACAQ

Bundan əlavə, Avropanın Mərkəzi Asiyaya artan marağı fonunda da Azərbaycanın geosiyasi və strateji mövqeyi, imkanları ön plana çıxır. Cənubi Qafqazın artan strateji əhəmiyyəti fonunda rəsmi Bakının razılığı olmadan Şərq istiqamətində hər hansı addımın atılmasının qeyri-mümkünlüyü hər kəsə aydındır. Bölgədə Azərbaycanın yaratdığı yeni reallıqlar nəticəsində sülh və sabitliyin hökm sürməsini isə Avropa fürsətlər pəncərəsi kimi görür. "Bütün Cənubi Qafqaz Avropa üçün imkanlar regionudur", - Yohan Vadeful bildirir. Onun sözlərinə görə, Azərbaycanın burada aparıcı rol oynaması yaxşı haldır. Azərbaycan Avropa ilə Mərkəzi Asiya arasında əlaqələrin təmin edilməsində Almaniya və Avropanın mühüm tərəfdaşıdır.

Y.Vadeful Brüsseldən yeni qayıtdığını və orada Avropa Komissiyasının sədri Ursula fon der Lyayenlə danışıqlar apardığını deyib: "Ursula fon der Lyayen də Avropa Komissiyasının konkret nəticələrin əldə edilməsində və regionla intensiv əməkdaşlıqda son dərəcə maraqlı olduğunu təsdiqləyib".

İqtisadi və ticari sahədə əməkdaşlıq ön planda

Qeyd edək ki, gələn il Azərbaycan-Almaniya diplomatik münasibətlərinin 35 illiyi qeyd olunacaq. Bu illər ərzində ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil edən 80 müxtəlif sənəd, saziş imzalanıb, 10 sənəd üzrə isə hazırda işlər aparılır.

İqtisadi əlaqələrə gəldikdə isə, Azərbaycanda 280 alman şirkəti qeydiyyatdan keçib, onlardan 210-u aktiv fəaliyyət göstərir. Almaniyadan Azərbaycana 950 milyon, Azərbaycandan Almaniyaya 670 milyon dollar məbləğində investisiya yatırılıb. Maraqlı məqam odur ki, bu yatırım daha çox qeyri-neft sektoruna edilib. Yaxın zamanlarda iki ölkə arasında növbəti biznes şurası da keçiriləcək.

Almaniyadan Azərbaycana ötən il 24 mindən çox turist gəlib, bu ilin ilk 10 ayında isə bu say artıq 25 mini keçib.

Beləliklə, Almaniyanın XİN başçısının ölkəmizə səfəri Avropanın strateji gündəmində Cənubi Qafqaz-Mərkəzi Asiya xəttinin getdikcə daha prioritet mahiyyət daşıdığını göstərir. Bu xətdə əsas söz sahibinin məhz Azərbaycan olması strateji əməkdaşlıq konfiqurasiyanın Bakı ilə razılaşmadan qeyri-mümkünlüyünü bir daha təsdiqləyir. Bu baxımdan, almaniyalı diplomatın bölgəyə səfərini məhz Azərbaycandan başlaması heç də təsadüfi deyil.

FRANKOFONİYA SAMMİTİ PARÇALANMA ASTANASINDA

Pnompendə keçirilən 20-ci Frankofoniya sammiti bir daha göstərdi ki, ortaq dil və mədəniyyət dəyərləri dövlətlər arasında siyasi maraqların uzlaşdırılması üçün həmişə kifayət etmir. Eyni təşkilatda təmsil olunan ölkələr fərqli mövqelər tuta bilirlər.



AZƏR NURİYEV

Beynəlxalq Frankofoniya Təşkilatının (OIF) 20-ci sammiti Afrikadakı siyasi ziddiyyətlərin beynəlxalq platformalara necə daşındığını bir daha nümayiş etdirib. Kambocanın paytaxtı Pnompendə keçirilən sammitdə Fransa Prezidenti Emmanuel Makronun birlik və konsensus çağırışları, əslində, təşkilat daxilində dərinləşən fikir ayrılıqlarının fonunda səslənib. Sammitin əsas müzakirə mövzularından biri OIF-in baş katibi vəzifəsinə yeni namizədin seçilməsi olub. Lakin bu məsələ sadəcə təşkilati rəhbərliyin müəyyənləşdirilməsi ilə məhdudlaşmayıb. Seçki prosesi Konqo və Ruanda arasında mövcud olan siyasi gərginliyin növbəti müstəviyə daşınmasına səbəb olub. Nəticədə Frankofoniya sammiti ortaq dəyərlərin deyil, siyasi rəqabətin və diplomatik hesablaşmaların ön plana çıxdığı platformaya çevrilib.

MAKRONUN BİRLİK ÇAĞIRIŞI

Makron Frankofoniya ölkələrini dialoqa, həmrəyliyə və konsensusa çağırıb. Onun bu çıxışı təsadüfi xarakter daşımırdı. Çünki təşkilatın rəhbərliyinə namizədlik məsələsi ətrafında yaranmış fikir ayrılığı artıq üzv dövlətlər arasında ciddi diplomatik gərginliyə çevrilmişdi. Xüsusilə Konqo Demokratik Respublikasının Ruandanın namizədi Luiz Muşikivabonun yenidən baş katib seçilməsinə qarşı çıxması vəziyyəti daha da mürəkkəbləşdirib. Ruanda nümayəndəsi Luiz Muşikivabo üçüncü müddətə namizədliyini irəli sürüb. Lakin Kinşasa onun yenidən seçilməsini qəbul etmədiyini açıqlayıb. Konqo tərəfi hətta bu qərar qəbul olunacağı təqdirdə təşkilatı tərk edə biləcəyi ilə bağlı xəbərdarlıq edib. Bu təhdidin arxasında ciddi siyasi və demoqrafik amillər dayanır. Belə ki, Konqo Demokratik Respublikası Fransadan sonra dünyada fransızdilli əhalinin sayına görə ikinci yerdədir. Ölkədə təxminən 57,3 milyon fransızdilli insanın yaşadığı bildirilir. Belə bir dövlətin təşkilatdan ayrılması Frankofoniya üçün həm siyasi, həm də nüfuz baxımından ciddi zərbə olardı.



KONQO-RUANDA QARŞIDURMASININ PƏRDƏARXASI

İki ölkə arasında xüsusilə Konqonun şərqindəki təhlükəsizlik vəziyyəti ilə bağlı ciddi fikir ayrılıqları mövcuddur.

Konqo hakimiyyəti Ruandanı ölkənin şərq əyalətlərində fəaliyyət göstərən "M23" silahlı qruplaşmasına dəstək verməkdə ittiham edir. Kinşasanın iddialarına görə, Ruandanın bu qruplaşmaya yardımı Konqonun ərazi bütövlüyünə və suverenliyinə təhdid yaradır. Kigali isə bu ittihamları rədd edir. Belə bir şəraitdə Konqo rəhbərliyinin Ruanda nümayəndəsinin Frankofoniya Təşkilatının rəhbərliyində qalmasına qarşı çıxması təkcə təşkilati seçim məsələsi deyil. Bu addım Kinşasanın Kigaliyə qarşı diplomatik təzyiq vasitələrindən biri kimi də qiymətləndirilə bilər.

Konqo Prezidenti Feliks Tşisekedinin mövqeyi göstərir ki, ölkəsi regional təhlükəsizliklə bağlı narazılıqlarını beynəlxalq platformalarda da gündəmə gətirmək niyyətindədir. Ruanda Prezidenti Pol Kaqamenin isə Muşikivabonun namizədliyindən geri çəkilməməsi iki ölkə arasında qarşıdurmanın diplomatik müstəvidə də davam etdiyini göstərir.

DÖRD NAMİZƏD, FƏRQLİ SİYASİ MARAQLAR

Frankofoniya Təşkilatının 2027–2030-cu illəri əhatə edəcək yeni rəhbərliyi uğrunda mübarizədə dörd namizəd iştirak edib: Luiz Muşikivabo 2018-ci ildən təşkilatın baş katibi, Ruandanın namizədi, Juliana Lumumba - Konqo Demokratik Respublikasının namizədi, ölkənin müstəqillik tarixinin simalarından biri Patris Lumumbanın qızı, Dacian Çoloş - Rumıniyanın keçmiş baş naziri və Avropa İttifaqının sabiq komissarı. Kumba Ba - Mavritaniyanın keçmiş naziri olub. Namizədlər arasında mübarizə təşkilatın gələcək siyasi istiqaməti baxımından da əhəmiyyətlidir. Ruanda mövcud rəhbərliyin fəaliyyətinin davam etdirilməsində maraqlıdır. Konqo isə Muşikivabonun yenidən seçilməsinin qarşısını almağa çalışır.



RƏQABƏTƏ AVROPA DÖVLƏTLƏRİ DƏ QOŞULUB

Maraqlı məqam ondan ibarətdir ki, Konqo tərəfi əvvəlcə öz namizədi Juliana Lumumbanı irəli sürsə də, sonradan konsensus əldə olunması naminə onun namizədliyini geri götürməyə və Rumıniyanın keçmiş baş naziri Dacian Çoloşun namizədliyini dəstəkləməyə hazır olduğunu bildirib. Lakin bunun üçün Ruandanın da öz namizədindən imtina etməsi tələb olunub. Beləliklə, təşkilatın rəhbərliyi uğrunda mübarizə Afrika ölkələrinin regional maraqlarını aşaraq Avropa dövlətlərinin də diplomatik gündəminə daxil olub.

FRANKOFONİYANIN GƏLƏCƏYİ ÜÇÜN TƏHLÜKƏLİ PRESEDENT

Təşkilatın Afrika qitəsindəki nüfuzunun zəifləməsi, üzv dövlətlər arasında siyasi fikir ayrılıqlarının artması və Fransanın təsir imkanlarının müzakirə mövzusuna çevrilməsi mövcud vəziyyəti daha da mürəkkəbləşdirir. Xüsusilə Burkina-Faso, Mali və Nigerin 2025-ci ildə təşkilatdan ayrılması Frankofoniyanın Afrika istiqamətində mövqelərinə ciddi təsir göstərib. İndi isə Konqo Demokratik Respublikasının mümkün ayrılma xəbərdarlığı təşkilat üçün növbəti sınaqdır. Burada başqa bir mühüm məsələ də var. Frankofoniya ənənəvi olaraq rəhbərliyin müəyyənləşdirilməsində konsensus prinsipinə üstünlük verir. Lakin tərəflər arasında razılıq əldə olunmadığı təqdirdə 2022-ci ildə qəbul edilmiş qaydalara əsasən sadə səs çoxluğu ilə seçim mexanizmi tətbiq oluna bilər. Bu isə təşkilat daxilində siyasi qarşıdurmanı daha da dərinləşdirə bilər.

Pnompendə keçirilən 20-ci Frankofoniya sammiti bir daha göstərdi ki, ortaq dil və mədəniyyət dəyərləri dövlətlər arasında siyasi maraqların uzlaşdırılması üçün həmişə kifayət etmir. Eyni təşkilatda təmsil olunan ölkələr regional təhlükəsizlik, iqtisadi maraqlar, beynəlxalq nüfuz və siyasi liderlik məsələlərində fərqli mövqelər tuta bilirlər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

TİKİNTİ SEKTORUNDA GERİLƏMƏ

Ümumi daxili məhsulda artım qeydə alınsa da, tikinti sektorunda nəzərəçarpacaq geriləmə müşahidə olunur. Ekspertlər bu amili həm sosial infrastruktur, həm də yeni binaların inşasındakı azalma ilə əsaslandırırlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda tikinti sektorunda 6,8 faizlik azalma qeydə alınıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Qurumun məlumatına görə, 2026-cı ilin yanvar-oktyabr aylarında ölkədə 115 milyard 930,5 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Bəs ümumi iqtisadi artıma baxmayaraq, tikinti sektorunda geriləmə hansı səbəblərdən qaynaqlanır?

"TİKİNTİ LAYİHƏLƏRİNƏ İCAZƏLƏR TƏXMİNƏN 10 DƏFƏ AZALIB"

Daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadovun sözlərinə görə, tikinti sektorunda son illərdə ciddi geriləmə müşahidə olunur. O bildirir ki, Qarabağ iqtisadi rayonunda aparılan tikinti işlərini nəzərə almasaq, 2016-cı illə 2026-cı ili müqayisə etdikdə, yeni mülki tikinti layihələrinin sayında təxminən 9-10 dəfə azalma görmək mümkündür: "2016-cı ildə Nazirlər Kabinetinin 86 saylı qərarı ilə Bakı şəhərində təxminən 100 tikinti layihəsinə başlanılıb, müvafiq sərəncamlar verilib və icazələr ayrılıb. Lakin 2026-cı ildə Bakı-Abşeron ərazisində yeni çoxmənzilli binaların tikintisinə verilən icazələrin sayı il ərzində 10-dan da az olub. Bu, 2016-cı illə müqayisədə təxminən 10 dəfə azalma deməkdir".

Ekspert qeyd edir ki, 2019-cu ildən etibarən tikinti şirkətlərinə verilən icazələrin sayı kəskin azalıb. Onun sözlərinə görə, çoxmənzilli binaların tikintisi ilə bağlı səlahiyyətlərin 2018-ci ildə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verilməsindən sonra da bu istiqamətdə ciddi azalma müşahidə olunub: "Hazırda tikinti bazarında əsasən bir neçə iri şirkət aktivdir. Kiçik və orta şirkətlər isə yeni layihələr üçün icazə almaqda çətinlik çəkirlər. Bəzi layihələr əvvəlki illərdə verilmiş sərəncamlar və icazələr əsasında həyata keçirilir. Digər şirkətlər isə uzun illərdir yeni layihələr üçün icazə gözləyirlər, lakin ala bilmirlər".

RƏQABƏTİN ZƏİFLƏMƏSİ QİYMƏTLƏRƏ NECƏ TƏSİR EDİR?


Ekspert hesab edir ki, Bakıda son 5-6 ildə rəqabətin zəifləməsi daşınmaz əmlakın qiymətlərinin artmasına da təsir göstərir. Onun sözlərinə görə, mənzillərin hər il 12-15 faiz bahalaşması ilə bağlı fikirlər səsləndirilsə də, bu istiqamətdə ciddi tədbirlər görülmür: "Bir tərəfdən dövlət tərəfindən ipoteka və digər vətəndaş ehtiyacları üçün böyük həcmdə vəsait ayrılır, digər tərəfdən isə həm iş adamlarının, həm də vətəndaşların daşınmaz əmlaka yönəltdiyi investisiyalar bu sahədə böyük həcmdə vəsaitin cəmləşməsinə səbəb olur. Belə bahalaşma digər sahələrin inkişafına da maneə yaradır".



Elnur Azadov

"HƏR İL 48-50 MİN YENİ AİLƏNİN MƏNZİLƏ EHTİYACI YARANIR"

Əmlak eksperti Firdovsi Xəlilov isə bildirir ki, tikinti sektorunda 6,8 faizlik azalmanı mənzil tikintisinin eyni nisbətdə azalması kimi qiymətləndirmək düzgün deyil. Çünki tikinti sahəsinə yaşayış binaları ilə yanaşı, sənaye obyektləri, yollar, körpülər və digər infrastruktur layihələri də daxildir: "2026-cı ilin yanvar-oktyabr aylarında ölkə üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 16 milyard 520 milyon manat olub. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,7 faiz çoxdur. Vəsaitin 2,38 milyard manatı yaşayış evlərinin tikintisinə yönəldilib. Beləliklə, ümumi investisiyaların 14,4 faizi bu sahənin payına düşüb. Təxmini hesablamalarımıza görə, Azərbaycanda hər il 48-50 min yeni ailənin mənzilə ehtiyacı yaranır".



"Əsas problem mənzil təklifinin qiymətindədir"

Firdovsi Xəlilovun fikrincə, mənzil bazarında əsas problem ümumi təklifin azlığından daha çox, mövcud mənzillərin qiyməti ilə əhalinin alıcılıq qabiliyyəti arasındakı uyğunsuzluqdur: "Bu gün Bakıda 300 min manatdan yuxarı qiymətə kifayət qədər geniş mənzil təklifi var. Lakin mənzilə ən böyük ehtiyacın olduğu aşağı və orta qiymət seqmentlərində seçim imkanları məhduddur. Azərbaycanda mənzilə ən böyük potensial tələb məhz bu seqmentlərdə cəmləşib. Xüsusilə 100 min manata qədər qiyməti olan, uzunmüddətli və əlçatan maliyyələşmə şərtləri ilə əldə edilə bilən mənzillərə ciddi ehtiyac var. Bazarın təklifi əhalinin böyük hissəsinin alıcılıq qabiliyyətinə uyğun deyil".

Yeni yaşayış layihələrinin həyata keçirilməsinə təsir edən amillərə gəlincə, ekspert torpaq sahələrinin qiymətini, tikinti sıxlığına dair normativləri, tikinti materiallarının və işçi qüvvəsinin dəyərini, vergi yükünü, layihələrin hazırlanması və razılaşdırılması müddətlərini, eləcə də tikinti şirkətlərinin maliyyə resurslarına çıxış imkanlarını qeyd edir.

"TİKİNTİ SEKTORUNDAKI GERİLƏMƏ MƏNZİL QİYMƏTLƏRİNƏ TƏSİR GÖSTƏRƏ BİLƏR"

Tikinti sektorundakı azalmanın mənzil qiymətlərinə mümkün təsirinə gəlincə, ekspert yaxın dövrdə avtomatik ucuzlaşma gözləmədiyini bildirir. Onun fikrincə, yaşayış tikintisinə investisiyaların azalması və yeni layihələrin bazara çıxarılmasının zəifləməsi davam edərsə, bu, orta və uzunmüddətli dövrdə təklifin artımını məhdudlaşdıraraq qiymətlərə əlavə təzyiq göstərə bilər: "Mənzil qiymətlərinin dinamikası təkcə tikinti həcmindən asılı deyil. Əhalinin real gəlirləri, kredit imkanları, tikinti xərcləri və bazardakı ödəmə qabiliyyətli tələb də qiymətlərin formalaşmasında mühüm rol oynayır. Mənzil bazarının növbəti inkişaf mərhələsində əsas diqqət yeni yaşayış layihələrinin qiymət strukturuna yönəldilməlidir. Daha çox mənzil tikintisinə ehtiyacımız var, amma bu ehtiyac bütün qiymət seqmentlərində eyni deyil. Əsas tələbat aşağı və orta gəlirli ailələrin əldə edə biləcəyi mənzillərədir. Bunun üçün daha münasib iqtisadi şərtlərlə həyata keçirilən yaşayış layihələrinin genişləndirilməsi, torpaq və infrastruktur təminatının, eləcə də uzunmüddətli maliyyələşmə mexanizmlərinin inkişaf etdirilməsi əhəmiyyətli olardı".

BMT-DƏN AZƏRBAYCANA YÜKSƏK QİYMƏT

BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi (EHİİ) üzrə 2026-cı il hesabatı açıqlanıb. Hesabata əsasən Azərbaycan siyahıda 38-ci yerə yüksəlib.



SƏNAN AĞAMALIZADƏ, REPORT

Azərbaycan BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi (EHİİ) üzrə 2026-cı il hesabatında 38-ci yerə yüksəlib. Bu, ölkənin rəqəmsal transformasiya sahəsində əldə etdiyi nəticələrin beynəlxalq səviyyədə qiymətləndirilməsi baxımından mühüm amildir.

RƏQƏMSAL HƏLLƏRİN TƏTBİQİNİN GENİŞLƏNMƏSİNİN GÖSTƏRİCİSİ

2024-cü ildə 74-cü sırada qərarlaşmış ölkənin cəmi iki ildə 36 pillə irəliləməsi dövlət xidmətlərinin rəqəmsallaşdırılması, elektron platformaların genişləndirilməsi və idarəetmədə texnoloji həllərin tətbiqi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir. Xüsusilə Onlayn Xidmətlər İndeksi üzrə 11-ci mövqeyə yüksəliş rəqəmsal dövlət xidmətlərinin inkişafında əldə olunan irəliləyişin miqyasını göstərir.

Azərbaycanın rəqəmsal hökumət sahəsində beynəlxalq mövqeyinin yaxşılaşması son illərdə bu istiqamətdə aparılan islahatların nəticələrinin daha aydın görünməsinə şərait yaradır. BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin hazırladığı Elektron Hökumətin İnkişafı İndeksində (EHİİ) ölkəmizin 36 pillə irəliləyərək 38-ci yerdə qərarlaşması təkcə reytinq göstəricisinin dəyişməsi deyil, eyni zamanda dövlət idarəçiliyində rəqəmsal həllərin tətbiqinin genişlənməsinin göstəricisidir.

Hesabata əsasən Azərbaycanın ümumi EHİİ göstəricisi 0,8847 bal təşkil edib. Bu, 2024-cü ildə qeydə alınmış 0,7607 balla müqayisədə 16,3%-lik artım deməkdir. Beləliklə, Azərbaycan "Çox yüksək EHİİ" kateqoriyasında mövqeyini daha da gücləndirib və Avstriya, Yaponiya, Kanada, İsrail kimi ölkələrin daxil olduğu V3 altqrupuna yüksəlib.

ONLAYN XİDMƏTLƏR ÜZRƏ İLK ONLUĞUN BİR ADDIMLIĞINDA

Hesabatda Azərbaycanın ən nəzərəçarpan irəliləyişi Onlayn Xidmətlər İndeksi (OSI) üzrə qeydə alınıb. Ölkəmiz bu göstəricidə 2024-cü ildəki 67-ci yerdən 56 pillə irəliləyərək 11-ci mövqeyə yüksəlib. Bu nəticə ümumi reytinqdəki yüksəlişin əsas hərəkətverici qüvvələrindən biri kimi qiymətləndirilə bilər.

Maraqlı məqam odur ki, Azərbaycan onlayn xidmətlərin inkişaf səviyyəsinə görə bir sıra inkişaf etmiş ölkələri də qabaqlayıb. Belə ki, Azərbaycan bu göstərici üzrə Böyük Britaniya, İslandiya, ABŞ, Kanada, Norveç və Avstraliya kimi dövlətlərdən daha yüksək mövqedə qərarlaşıb. Xidmətlərin təqdim edilməsi altindeksi üzrə 10-cu yerin Estoniya ilə bölüşdürülməsi də diqqət çəkən nəticələrdəndir.

Cənubi Qafqazda rəqəmsal hökumət üzrə lider

BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi üzrə Azərbaycanın əldə etdiyi nəticə ölkənin təkcə qlobal miqyasda deyil, regional səviyyədə də mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdiyini göstərir. Belə ki, Azərbaycan 2026-cı il hesabatında Cənubi Qafqaz ölkələri arasında ilk sırada qərarlaşıb. Ermənistanın 55-ci, Gürcüstanın isə 58-ci yerdə olması Azərbaycanın rəqəmsal hökumətin inkişafı sahəsində regionda lider mövqeyini təsdiqləyir.

Bu nəticə Azərbaycanın dövlət xidmətlərinin rəqəmsallaşdırılması, elektron idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və rəqəmsal infrastrukturun inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərin regional müqayisədə də üstün nəticələr verdiyini nümayiş etdirir.

RƏQƏMSAL TRANSFORMASİYANIN İNSTİTUSİONAL ƏSASLARI

Son illərdə rəqəmsal transformasiya dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.

Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirənin keçirilməsi bu istiqamətdə siyasi iradənin, məsələyə sistemli yanaşmanın göstəricisidir.

Rəqəmsal İnkişaf Konsepsiyası, həmçinin "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" kimi sənədlər qarşıdakı dövr üçün əsas prioritetlərin müəyyənləşdirilməsi baxımından əhəmiyyət daşıyır.

Bu istiqamətdə koordinasiyanın təmin olunmasında Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurasının fəaliyyəti də əhəmiyyətlidir. Rəqəmsal transformasiya müxtəlif dövlət qurumlarının səlahiyyət və fəaliyyət sahələrini əhatə etdiyindən, vahid yanaşmanın təmin edilməsi, qərarların uzlaşdırılması və təşəbbüslərin icrasına nəzarət xüsusi önəm daşıyır.

İnsan kapitalı və telekommunikasiya infrastrukturu

BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi yalnız onlayn xidmətlərin vəziyyətini qiymətləndirmir. İndeksin digər iki əsas komponenti Telekommunikasiya İnfrastrukturu İndeksi (TII) və İnsan Kapitalı İndeksidir (HCI). Bu yanaşma rəqəmsal hökumətin inkişafının kompleks xarakter daşıdığını göstərir.

Telekommunikasiya infrastrukturu elektron xidmətlərin əlçatanlığı üçün əsas şərtlərdən biridir. İnternetə çıxış imkanlarının genişliyi, rabitə infrastrukturunun keyfiyyəti və texnoloji imkanlar dövlət xidmətlərinin rəqəmsal mühitdə fasiləsiz təqdim olunmasına birbaşa təsir göstərir. Xüsusilə regionlarda yaşayan əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması rəqəmsal transformasiyanın inklüziv xarakter daşıması baxımından vacibdir.

ƏLDƏ OLUNAN NƏTİCƏLƏRİN DAVAMLILIĞI ƏSAS HƏDƏF OLACAQ

Azərbaycanın EHİİ üzrə 38-ci yerə yüksəlməsi ölkənin rəqəmsal inkişaf gündəliyində mühüm nailiyyətdir. Xüsusilə Onlayn Xidmətlər İndeksi üzrə 11-ci mövqe dövlət xidmətlərinin rəqəmsallaşdırılması sahəsində əldə olunan nəticələrin miqyasını nümayiş etdirir. Bununla belə, beynəlxalq reytinqdə yüksəliş qarşıdakı dövr üçün işlərin başa çatması deyil, daha yüksək hədəflərə çatmaq üçün əlavə imkanların yaranması kimi qiymətləndirilməlidir.

Növbəti mərhələdə əsas diqqətin rəqəmsal xidmətlərin keyfiyyətinin artırılmasına, onların bütün əhali qrupları üçün əlçatanlığına, dövlət qurumları arasında məlumat mübadiləsinin daha da genişləndirilməsinə və proaktiv xidmət modelinin inkişafına yönəldilməsi vacibdir. Eyni zamanda, telekommunikasiya infrastrukturunun təkmilləşdirilməsi, insan kapitalına investisiyaların artırılması, rəqəmsal savadlılığın yüksəldilməsi və kibertəhlükəsizlik mexanizmlərinin gücləndirilməsi əldə olunan nəticələrin davamlılığını təmin edə bilər.

Bir sözlə, Azərbaycanın BMT-nin Elektron Hökumətin İnkişafı İndeksində 36 pillə irəliləməsi rəqəmsal transformasiyanın artıq ayrı-ayrı elektron xidmətlərin tətbiqindən daha geniş mərhələyə keçdiyini göstərir.

MƏKTƏBLƏRDƏ MÜƏLLİMLƏRİN NÜFUZUNUN GÜCLƏNDİRİLMƏSİNƏ EHTİYAC VAR

ŞAGİRD QORUNUR, BƏS MÜƏLLİM?

Məktəblərdə şagirdlərin hüquqlarının qorunması ilə bağlı müəllimlərin üzərinə əlavə öhdəliklər qoyulur. Bunun fonunda müəllimlərin də hüquqlarının, nüfuzunun qorunmasının vacibliyi önə çəkilir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda təhsilverənlərin etik davranış qaydalarına edilən yeni əlavələrə əsasən, müəllimlər uşaqları fiziki və psixi zorakılığın bütün formalarından qorumalı, onları zərərli vərdişlərdən çəkindirməli, şərəf və ləyaqətlərinə hörmət etməlidirlər. Eyni zamanda, intizam tədbiri adı altında şagirdlərə qarşı zorakılığın istənilən formasının tətbiqi qadağan olunur. Şagirdlərin hüquqlarının qorunması ilə bağlı bu tələblər cəmiyyətdə mühüm müzakirə mövzusu yaradır. O mənada ki, müəllimlərin üzərinə yeni məsuliyyətlər qoyulduğu bir vaxtda onların öz hüquqlarının, peşə nüfuzunun və təhlükəsizliyinin qorunması məsələsi də diqqətdən kənarda qalmamalıdır. Bəs yeni tələblər müəllimlərin gündəlik fəaliyyətinə necə təsir edəcək?

"YENİ TƏLƏB DEYİL"

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərovanın fikrincə, şagirdlərin hüquqlarının və ləyaqətinin qorunması, onların alçaldılmadan intizama cəlb edilməsi müəllimlər üçün yeni tələb deyil: "Lakin sinifdə intizamın təmin olunması heç də həmişə asan olmur. Müəllim eyni vaxtda həm dərsi davamlı pozan şagirdlə düzgün davranmalı, həm də digər uşaqların tədris prosesinin normal davam etməsini təmin etməlidir. Belə vəziyyətlərdə müəllimə sadəcə "intizamı təmin et" demək kifayət deyil. Sinifdə davranış qaydaları əvvəlcədən aydın müəyyənləşdirilməlidir. Problem yarandıqda uşağı hamının qarşısında danlamaqdansa, onunla ayrıca danışmaq, davranışının dərsə və digər şagirdlərə necə təsir etdiyini izah etmək daha faydalıdır. Əgər bu hal təkrarlanırsa, müəllim məsələni təkbaşına həll etməyə çalışmamalıdır. Məktəb rəhbərliyi və valideyn də prosesə qoşulmalı, ehtiyac olduqda məktəb psixoloqunun dəstəyindən istifadə edilməlidir". İŞ üzvü hesab edir ki, müəllimlə bağlı hər hansı şikayət olduqda qərar verilməzdən əvvəl onun da mövqeyi dinlənilməli və məsələ obyektiv araşdırılmalıdır: "Müəllim təhqir və ya təhdidlə üzləşdikdə isə bu, onunla valideyn arasında şəxsi mübahisə kimi qiymətləndirilməməli, məktəb rəhbərliyi vaxtında müdaxilə etməlidir. Müəllim olaraq əsas gözləntimiz odur ki, üzərimizə düşən vəzifələr qədər, çətin vəziyyətlərdə kimə müraciət edəcəyimiz və hansı dəstəyi alacağımız da aydın olsun. Şagirdin hüquqlarını qorumaqla müəllimin nüfuzunu qorumaq bir-birinə zidd deyil".

Müəllimlər üçün məsuliyyətin hüquqi çərçivəsi

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) sədri Pərvinə Qədimova hesab edir ki, şagird hüquqlarının qorunması vacib və zəruri olsa da, bu proses müəllimin pedaqoji fəaliyyətini məhdudlaşdırmamalı və onun üzərinə qeyri-müəyyən məsuliyyət qoymamalıdır: "Müəllim həm təlim-tərbiyə prosesinə, həm də şagirdlərin təhlükəsizliyinə görə məsuliyyət daşıyırsa, bu məsuliyyətin hüquqi çərçivəsi dəqiq müəyyənləşdirilməlidir. Sinifdə intizam qorxu və cəza üzərində deyil, qarşılıqlı hörmət, məsuliyyət və aydın davranış qaydaları əsasında qurulmalıdır. Müəllimin şagirdin davranışına müdaxilə etmək, tələb qoymaq və pedaqoji qərarlar vermək səlahiyyəti tanınmalıdır. Müəllimin nüfuzu və sözü sinifdə qorunmalıdır".

AGMA sədri hesab edir ki, müəllimin hüquqlarının qorunması şagird hüquqlarının qorunması qədər prinsipial məsələdir: "Müəllim təhqirə, təzyiqə, əsassız ittihamlara və ictimai nüfuzuna xələl gətirən davranışlara qarşı müdafiə mexanizmlərinə malik olmalıdır".

P.Qədimovanın fikrincə, müəllimlər yeni qaydalardan ilk növbədə aydın, ədalətli və praktik tətbiq oluna bilən tələblər gözləyirlər: "Münaqişəli vəziyyətlərdə müəllimin mövqeyinin dinlənilməsi, obyektiv araşdırma aparılması və hüquqi müdafiəsinin təmin edilməsi də vacibdir. Müəllimdən yüksək məsuliyyət tələb etmək onun hüquqlarını arxa plana keçirmək kimi başa düşülməməlidir. Müəllimin hüquqi müdafiəsi, peşə nüfuzunun qorunması, təhlükəsiz əmək şəraiti və qərarvermə səlahiyyətləri konkret mexanizmlərlə təmin edilməlidir. Şagirdin hüquqlarını qorumaq üçün müəllimin hüquqlarını zəiflətmək olmaz. Təhsil mühitində tərəflərdən birinin hüququ digərinin hüququ hesabına təmin edilməməlidir. Güclü və təhlükəsiz müəllim olmadan sağlam təhsil mühiti qurmaq mümkün deyil. Müəllim yalnız məsuliyyət daşıyan tərəf yox, həm də hüquqları qorunan, nüfuzu tanınan və müdafiə olunan peşə sahibidir".

MÜƏLLİMƏ YENİ TƏZYİQ VASİTƏSİ?

Təhsil eksperti İlham Əhmədovun fikrincə, son illərdə müəllim nüfuzu ciddi zədələnib: "Etik davranış qaydaları müəllimlər üçün yeni təzyiq vasitəsidir. Müəllimlərdən həm keyfiyyətli tədris tələb edirlər, həm də təlim-tərbiyə işləri üzrə direktor müavininin, psixoloqun funksiyalarını yerinə yetirmələri gözlənilir. Halbuki hər kəsin öz funksiyası olmalıdır. Müəllim dərsini keçməlidir. Bir tərəfdən deyirlər ki, səkkiz saat məktəbdə otur, digər tərəfdən isə "uşağın başından bir tük əskik olsa, sən cavabdehsən" deyə tələb edirlər". Ekspert hesab edir ki, müəllimin nüfuzunun yüksəldilməsi və peşəkar inkişafı üçün şərait yaradılması vacibdir: "Süni intellekt dövründə rəqabət artıb. Müəllimlərin maaşı da çox aşağıdır. Müəllimlər özlərini dolandırmaq üçün əlavə olaraq hazırlıq kurslarında dərs deməyə məcbur qalırlar. Bu da onların vaxtını, enerjisini aparır, halbuki, bunun əvəzinə müəllim öz peşəkar inkişafı ilə məşğul ola bilər".

KİRAYƏ BAZARINDA SÖKÜNTÜ EFFEKTİ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda kirayə mənzil qiymətləri artmaqda davam edir. Mənzillərin satış qiymətlərinin yüksəlməsi, köhnə yaşayış binalarının sökülməsi və tələbə axını bazarda qiymətlərə təsir göstərən əsas amillər sırasındadır.

Bakıda kirayə mənzil bazarında bahalaşma davam edir. Qiymət artımı artıq təkcə paytaxtın müəyyən ərazilər ilə məhdudlaşmır, mənzil axtaranların qarşısında daha ciddi seçim və büdcə problemi yaradır. Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına görə, bu ilin sentyabr ayının sonunda kirayə qiymətləri ötən ilin eyni dövrü ilə müqayisədə 5,7 faiz, avqustun sonuna nisbətən isə 1,9 faiz artıb. Yeni tikililərdə aylıq bahalaşma 3,1 faiz, köhnə tikililərdə isə 1,1 faiz olub. Bəs kirayə bazarında qiymət artımını sürətləndirən nədir və mənzil kirayələmək yaxın aylarda daha da çətinləşəcəkmi?

"MƏNZİLLƏRİN SATIŞ QİYMƏTLƏRİ KİRAYƏ GƏLİRLİLİYİNİ ÜSTƏLƏYİR"

Daşınmaz əmlak üzrə ekspert Firdovsi Xəlilovun sözlərinə görə, kirayə mənzil bazarındakı qiymət artımını yalnız ev sahiblərinin daha çox gəlir əldə etmək istəyi ilə izah etmək və ya kirayə bazarını mənzil bazarından ayrı qiymətləndirmək doğru olmaz. Burada bir neçə fundamental səbəb var: "Əsas amillərdən biri mənzillərin satış qiymətlərinin artmasıdır. Son illərdə Azərbaycanda, xüsusilə Bakıda mənzillərin satış qiymətlərində ciddi bahalaşma müşahidə olunur və kirayə bazarı da bu prosesdən birbaşa təsirlənir. Mənzilə yalnız yaşayış vasitəsi deyil, həm də investisiya aləti kimi baxmaq lazımdır. İnsan 250-300 min manat xərcləyərək mənzil alırsa, təbii ki, həmin vəsaitdən müəyyən gəlir əldə etmək istəyir. Lakin burada maraqlı tendensiya var: mənzillərin satış qiymətləri kirayə haqlarından daha sürətlə artır. Nəticədə kirayə qiymətləri yüksəlsə də, mənzil sahibinin investisiyasından əldə etdiyi gəlirlilik azalır. Bunu Mərkəzi Bankın rəqəmlərində də görmək mümkündür. 2024-cü ilin sonunda Bakıda median aylıq kirayə haqqı 927 manat, mənzilin kirayə gəliri hesabına kapitallaşma müddəti isə 19,5 il olub. Bu, təxminən 5,1 faizlik illik ümumi gəlirlilik deməkdir. 2025-ci ilin sonunda Mərkəzi Bankın ölkə üzrə hesablamalarında kapitallaşma müddəti 20,9 ilə, 2026-cı ilin birinci yarısında isə 23 ilə yüksəlib. Sonuncu göstərici təxminən 4,35 faizlik illik gəlirliliyə uyğun-dur".



Firdovsi Xəlilov



"Münasib qiymətli mənzillərin təklifi məhduddur"

Ekspert bildirdi ki, kirayə bazarındakı digər mühüm məsələ təklifin əhalinin ödəmə qabiliyyətinə uyğun olmamasıdır: "Problem bütün mənzil kateqoriyaları üzrə təklif çatışmazlığından daha çox, münasib qiymətli mənzillərin məhdud olmasıdır. Bu gün bazarda bahalı, mənzillərin kirayə təklifi kifayət qədər genişdir. Lakin insanların böyük əksəriyyətinin ödəyə biləcəyi qiymətə kiçik mənzillərin təklifi daha məhduddur. Buna görə də qiymət artımı bütün seqmentlərdə eyni səviyyədə baş vermir və ən çox təzyiq münasib qiymətli mənzillər üzərində yaranır".

F.Xəlilov hesab edir ki, sentyabr ayında kirayə qiymətlərinin avqustla müqayisədə 1,9 faiz artmasında mövsümi amillərin də rolu ola bilər. Universitetlərdə tədrisin başlaması ilə tələbələrin və bölgələrdən Bakıya gələn digər şəxslərin kirayə mənzillərə tələbatı artır. Lakin bunu qiymət artımının yeganə səbəbi kimi göstərmək düzgün olmaz: "Kirayə qiymətlərinin bütün şəhər üzrə eyni templə artacağını düşünmürəm. Xüsusilə əhalinin ödəmə qabiliyyətinə uyğun mənzillərə tələbat yüksək olaraq qalacaq. Digər tərəfdən, kirayə qiymətlərinin artımının da müəyyən iqtisadi həddi var. Bu hədd əhalinin real gəlirləri və ödəmə qabiliyyəti ilə müəyyən olunur. Mənzil kirayəsi ailənin aylıq gəlirinin çox böyük hissəsini əhatə etdikdə insanlar daha kiçik mənzillərə, şəhərin kənarlarına və ya birgə kirayə variantlarına yönəlməyə məcbur qalırlar. Ona görə də uzunmüddətli perspektivdə əsas məqsəd əhalinin real gəlirlərinə uyğun mənzil təklifini artırmaq olmalıdır".

"Sökün tülər kirayə mənzilləri bahalaşdırır"

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə düşünür ki, paytaxtda köhnə çoxmərtəbəli yaşayış binalarının və fərdi evlərin sökülməsi kirayə mənzillərin bir hissəsinin bazardan çıxmasına səbəb olur: "Sökülən binaların yerində inşa edilən yeni tikililərdə mənzillər isə köhnə binalarla müqayisədə təxminən iki dəfə baha qiymətə kirayə verilir. Söküntü nəticəsində evlərini itirən paytaxt sakinləri də kirayə mənzil tutmağa məcbur olurlar. Beləliklə, əvvəllər əsasən tələbələrin və bölgələrdən işləmək üçün gələn şəxslərin müraciət etdiyi kirayə bazarında əlavə tələbat yaranır. Paytaxtda söküntü və yenidənqurma işlərinin 2040-cı ilə qədər davam edəcəyi gözlənildiyindən, bu prosesin kirayə bazarına təsiri də uzun müddət davam edəcək".

E.Fərzəliyevin sözlərinə görə, kirayə mənzillərə ən çox tələbat metro stansiyalarının ətrafında müşahidə olunur: "Bakıda Yasamal rayonu bu baxımdan ilk sıralardadır. Daha sonra Nəsimi və Nərimanov rayonları gəlir. Bunun əsas səbəblərindən biri ali təhsil müəssisələrinin böyük hissəsinin Yasamal rayonunda yerləşməsidir. Tələbələr universitetlərə yaxın ərazilərdə mənzil tapa bilmədikdə metro stansiyalarına yaxın digər rayonlara üz tuturlar. Avqust-sentyabr aylarında bölgələrdən on minlərlə tələbənin eyni vaxtda Bakıya gəlməsi də kirayə bazarında mövsümi tələbatı artırır".

"YATAQXANALARIN TİKİNTİSİ KİRAYƏ QİYMƏTLƏRİNİ AZALDA BİLƏR"

Ekspertin fikrincə, kirayə bazarında tələbatı azaltmaq üçün ali təhsil müəssisələrinin tələbə yataqxanalarının yenidən tikilməsi vacibdir: "Əvvəllər mövcud olmuş yataqxanalar müasir tələblərə uyğunlaşdırılaraq daha hündürmərtəbəli binalarla əvəz edilə bilər. Hazırda Bakıda bölgələrdən gələn on minlərlə tələbə kirayə mənzillərdə qalır. Onların yataqxanalarla təmin edilməsi kirayə mənzillərə tələbatı azalda və nəticədə qiymətlərin aşağı düşməsinə şərait yarada bilər".



Elnur Fərzəliyev

RUMİNİYADA 110-CU YANACAQDOLDURMA MƏNTƏQƏSİ



SOCAR Rumıniyada 2011-ci ildən fəaliyyət göstərir. 2025-ci ildə törəmə şirkət 3,9 milyard lei (təqribən 750 milyon avro) dövriyyəyə malik olub ki, bu da 2024-cü illə müqayisədə 9,7% çoxdur.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Rumıniyada 110-cu yanacaqdoldurma məntəqəsini (YDM) istifadəyə verib. "Report" SOCAR-ın Rumıniyadakı törəmə şirkəti - "SOCAR Petroleum S.A"yə istinadən xəbər verir ki, yeni YDM ölkənin şimal-şərqində yerləşən, bölgənin iqtisadi və turizm potensialına malik olan Neamt rayonunun Horia şəhərində açılıb.

NEAMT RAYONUNDA SAYCA YEDDİNCİ MƏNTƏQƏ

"SOCAR" brendi altında istifadəyə verilən yeni yanacaqdoldurma məntəqəsi Neamt rayonunda sayca yeddinci məntəqədir. Hər bir "SOCAR" brendli yanacaqdoldurma məntəqəsində olduğu kimi, bu məntəqə də müasir xidmət infrastrukturu ilə təchiz olunub, müştərilərə benzin və dizel yanacaqları ilə yanaşı, müxtəlif əlavə xidmətlər də təqdim edilir.

"MADE İN AZERBAİJAN" BRENDİNİN TƏBLİĞİ

"Made in Azerbaijan" brendinin təbliği istiqamətində görülən işlər çərçivəsində məntəqə ərazisindəki "Nar" kafedə Azərbaycan guşəsi yaradılıb, burada yerli və ölkəmizdən gətirilən məhsulların satışı həyata keçirilir. Yeni YDM-lərin açılması SOCAR-ın Rumıniya bazarındakı pərakəndə satış sektorunda mövqelərinin gücləndirilməsi və fəaliyyət coğrafiyasının genişləndirilməsi istiqamətində həyata keçirdiyi strategiyanın mühüm tərkib hissəsidir.

SOCAR RUMİNİYADA 2011-Cİ İLDƏN FƏALİYYƏT GÖSTƏRİR

Xatırladaq ki, SOCAR Rumıniyada 2011-ci ildən fəaliyyət göstərir. 2025-ci ildə törəmə şirkət 3,9 milyard lei (təqribən 750 milyon avro) dövriyyəyə malik olub ki, bu da 2024-cü illə müqayisədə 9,7% çoxdur. Hazırda "SOCAR Petroleum S.A"nin ölkə üzrə üç yanacaqsaxlama deposu mövcuddur. İndiyə qədər SOCAR Rumıniya iqtisadiyyatına 400 milyon lei (təqribən 78,4 milyon avro) investisiya yatırıb.



Baku TV-nin Rus redaksiyasının beş yaşı tamam oldu

Baku TV-nin Rus redaksiyası (BAKU TV RU) 18 noyabr tarixində fəaliyyətinin beş illik yubileyini qeyd edir. Bu müddətdə redaksiya ölkənin informasiya məkanının ayrılmaz hissəsinə çevrilib.

Redaksiya Azərbaycanda və dünyada baş verən hadisələrə dair məlumatları dünyanın müxtəlif ölkələrində rusdilli kontent izləyənlərə çatdırmaq məqsədilə yaradılıb. Beş il ərzində minlərlə süjet, yüzlərlə canlı yayım, şərh və müsahibə hazırlanıb. Kanal bu müddətdə dəyişib, böyüyüb və inkişaf edib. Lakin iş prinsipləri dəyişməz qalıb: operativlik, aktuallıq və etibarlılıq redaksiyanın fəaliyyətində hər zaman əsas yer tutub.

Qısa müddətdə kanal rəqəmsal məkanda sürətli inkişafa nail olub və auditoriyasını əhəmiyyətli dərəcədə genişləndirib. 2021-ci ildə fəaliyyətə başlayan kanalın aylıq baxış sayı 2024-cü ildə 50 milyona çatıb. Həmin il kanal bir milyon abunəçi həddini keçərək "YouTube" platformasının "Qızıl düymə" (Gold Button) mükafatına layiq görülüb.

Yubiley münasibətilə redaksiya heyəti ilə görüşən "Global Media Group"un İdarə Heyətinin üzvü Orxan Məmmədov kollektivi təbrik edərək bildirib: "Baku TV-nin Rus redaksiyası qısa müddət ərzində həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə etibarlı informasiya mənbəyi kimi özünü təsdiqləyib. Operativlik, peşəkarlıq və obyektivlik prinsiplərinə sadiq qalaraq milyonlarla izləyicinin rəğbətini qazanmaq komandanın gərgin əməyinin nəticəsidir. İnanıram ki, redaksiya bundan sonra da Azərbaycan həqiqətlərinin dünyada təbliğində mühüm rol oynayacaq və yeni uğurlara imza atacaq".

Bu gün BAKU TV RU "YouTube" kanalını 1,3 milyondan çox abunəçi izləyir. Kanalın yarandığı gündən bu günədək paylaşdığı videolar, ümumilikdə bir milyard 932 milyon dəfə izlənilib. Bu rəqəmlər dünyada rusdilli kontent izləyənlərin BAKU TV RU-ya göstərdiyi böyük etimadın ən bariz göstəricisidir.

"TRENDYOL"DA "ƏFSANƏ GÜNLƏR" BAŞLAYIR

Türkiyənin aparıcı e-ticarət platforması və dünyanın ən böyük elektron ticarət platformalarından biri "Trendyol" noyabr ayının səbirsizliklə gözlənilən alış-veriş mövsümündə "Əfsanə günlər" kampaniyasını təqdim edir.

22-28 noyabr tarixlərini əhatə edəcək kampaniya müddətində "Trendyol"un Azərbaycandakı istifadəçiləri "NOYABR25" promo kodu ilə 25 faiz (maksimum 20 AZN-ə qədər) endirimdən faydalana biləcəklər.

Kampaniya çərçivəsində dəb, kosmetika və ev kateqoriyaları üzrə geniş məhsul çeşidi sərfəli qiymətlərlə təqdim olunacaq. Qış qarderobunun əsas elementlərindən dəbli geyimlərə, ayaqqabı və aksesuarlardan baxım vasitələrinə, kosmetikadan ev dekorasiyası və mətbəx ləvazimatlarınadək bir çox məhsul istifadəçilərə təklif ediləcək. Bundan əlavə, təmizlik və şəxsi gigiyena məhsullarını da endirimli qiymətlərlə almaq mümkün olacaq.

"Əfsanə günlər"in fürsətləri bununla bitmir. Müxtəlif məhsullara 60 faizədək endirimlər, səbətdə özəl kuponlar tətbiq olunacaq. Alış-veriş həvəskarları kupon və endirim kodlarından istədikləri məhsullarda istifadə edə biləcəklər.

Kampaniya müddətində alış-veriş təcrübəsini daha sərfəli etmək istəyən istifadəçilər "Trendyol Plus" abunəliyinin imkanlarından da faydalana bilərlər. Azərbaycanda bu abunəliyin ilk ayını cəmi bir AZN ödəməklə aktivləşdirmək mümkündür. Sonrakı aylarda isə xidmətin aylıq haqqı 5,49 AZN təşkil edir. "Trendyol Plus" üzvlərinə hər ay 10 ödənişsiz çatdırılma fürsəti, həmçinin yalnız abunəçilər üçün nəzərdə tutulan eksklüziv endirimlər təklif olunur.



Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1533
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

QUBANIN ALMA BAĞLARI NİYƏ KİÇİLİR?

Qubada alma istehsalı son illərdə həm bağ sahələrinin azalması, həm də satış problemləri ilə üzləşir. Yağıntılı hava şəraiti və dəmgil xəstəliyi bu il fermerlərin xərclərini artıraraq məhsul itkisinə səbəb olub.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Quba uzun illər Azərbaycanın əsas alma yetişdirilən bölgələrindən biri kimi tanınıb. Lakin son beş ildə rayonda alma bağlarının sahəsi təxminən yarıbayarı azalıb. Bu il isə yağıntılı və rütubətli hava şəraitinin yaratdığı xəstəliklər fermerlərin vəziyyətini daha da çətinləşdirib. Artan istehsal xərcləri və məhsul itkisi bölgədə alma istehsalının gələcəyi ilə bağlı suallar yaradıb.

Fermer Elşad Rüstəmovun sözlərinə görə, 1,5 hektar sahəsi olan alma bağında əvvəlki illərdə adətən 5-6 dəfə dərmanlama aparıldığı halda, bu il həmin göstərici 15-ə çatıb. Buna baxmayaraq, təsərrüfatın gəlirini qorumaq mümkün olmayıb: "Ötən illərdə alma bağından 8-10 min manat gəlir götürürdük. Bu il isə heç qoyduğumuz mayanı da çıxara bilmədik ".

Digər fermer Teymur Seyfullayev də məhsuldarlığın kəskin azaldığını deyir. Onun sözlərinə görə, təxminən 1,5 hektar sahəsi olan bağda əvvəlki illərdə 16 ton alma yığıldığı halda, bu il məhsul cəmi 6 ton təşkil edib. Fermer bildirir ki, yığım əvvəlki illərlə müqayisədə daha qısa müddətdə başa çatıb.

DƏMGİL XƏSTƏLİYİNİN İNKİŞAFI ÜÇÜN ƏLVERİŞLİ MÜHİT YARANIB

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, Qubada yağıntılı və yüksək rütubətli hava şəraiti alma bağlarında dəmgil xəstəliyinin inkişafı üçün əlverişli mühit yaradıb. Xüsusilə 2026-cı ilin yaz aylarında çiçəkləmə və ilkin meyvə əmələgəlmə dövründə yağıntıların davam etməsi xəstəliklə mübarizəni çətinləşdirib. Nazirlikdən bildirilib ki, rayonda təxminən 4 500 hektar alma bağında müxtəlif dərəcələrdə yoluxma qeydə alınıb. Qurumun açıqlamasında vurğulanıb ki, xəstəlik meyvələrin əmtəəlik görünüşünə, keyfiyyətinə və saxlanma qabiliyyətinə mənfi təsir göstərə bilər. Bununla belə, yoluxma həmin sahələrdə mütləq məhsul itkisi baş verməsi demək deyil. İtkinin səviyyəsi xəstəliyin yayılma dərəcəsindən və mübarizə tədbirlərinin səmərəliliyindən asılıdır. Nazirlik fermerlərə xəstəlik əlamətlərini izləməyi, yoluxmuş yarpaq və meyvələri bağdan kənarlaşdırmağı, ağacların çətirlərini düzgün formalaşdıraraq havalanmanı yaxşılaşdırmağı tövsiyə edir.

"BEŞ İLDƏ ALMA BAĞLARININ SAHƏSİ 47,6 FAİZ AZALIB"

Nazirliyin məlumatına əsasən, son beş ildə Quba rayonunda alma bağlarının ümumi sahəsi 2021-ci ildəki 13 518 hektardan 2025-ci ildə 7 077 hektara qədər azalıb. Bu, təxminən 47,6 faizlik azalma deməkdir. Səbəblər arasında iqtisadi istismar müddətini başa vurmuş köhnə bağların dövriyyədən çıxarılması və bəzi ərazilərdə gilas, şaftalı, nektarin kimi digər meyvə növlərinə üstünlük verilməsi göstərilir. Bununla yanaşı, 2021-2025-ci illərdə rayonda 7 575 hektar yeni meyvə bağı salınıb. Həmin sahələrin 4 736 hektarı gilas, 1 312 hektarı şaftalı-nektarin, 1 527 hektarı isə digər meyvə bağlarının payına düşür. Yəni bu rəqəmlər yeni alma bağlarını deyil, ümumilikdə meyvə bağlarını əhatə edir. Nazirlik köhnəlmiş alma bağlarının mərhələli yenilənməsini, yerli şəraitə uyğun, məhsuldar və xəstəliklərə davamlı sortların seçilməsini vacib hesab edir. Qurumun qiymətləndirməsinə görə, düzgün aqrotexniki tədbirlər görülən ənənəvi bağlarda hektardan 25-30 ton, superintensiv bağlarda isə 50 ton və daha çox məhsul əldə etmək mümkündür.

Nazirlik fermerlərin istehsal risklərinin azaldılması üçün aqrar sığorta və subsidiya mexanizmlərinin tətbiq olunduğunu da bildirib. Aqrar Sığorta Fondunun məlumatına əsasən, 2026-cı ilədək ölkə üzrə alma və ting sahələrindən ümumilikdə 705,91 hektar ərazi sığortalanıb. Bu sahələr üzrə sığorta məbləği 11 743 374,99 manat təşkil edib. Bundan başqa, müəyyən edilmiş tələblərə cavab verən superintensiv alma bağlarının salınmasına hər hektar üçün 11 000 manat əkin subsidiyası nəzərdə tutulur.

"PROBLEM TƏKCƏ MƏHSUL İTKİSİ DEYİL"

İqtisadçı Asif İbrahimlinin sözlərinə görə, Qubada almaçılıqla məşğul olan fermerlərin çətinlikləri yalnız builki hava şəraiti və xəstəliklərlə bağlı deyil. Onun fikrincə, artan istehsal xərcləri, məhsul itkisi və satış imkanlarının məhdudluğu fermerlərin gəlirlərinə eyni vaxtda təsir göstərir: "Bu vəziyyət xüsusilə maliyyə ehtiyatları məhdud olan kiçik və orta fermerlərin növbəti mövsümə hazırlaşmaq imkanlarını zəiflədir".

İqtisadçı hesab edir ki, almaçılığın vəziyyətini yalnız məhsuldarlıq göstəricisi ilə qiymətləndirmək düzgün deyil. Məhsulun yığılması, çeşidlənməsi, saxlanılması, qablaşdırılması və satışını əhatə edən bütün iqtisadi zəncir nəzərə alınmalıdır: "Məhsulun böyük hissəsinin eyni mövsümdə bazara çıxarılması təklifi artıraraq qiymətlərə təzyiq yaradır, saxlama imkanlarının məhdudluğu isə fermeri məhsulu yığımdan dərhal sonra satmağa məcbur edir. Fermerlərdən aldığımız məlumatlara görə, bazar satış qiyməti ilə emal müəssisələrinin qəbul qiyməti arasında ciddi fərq var. Fermer istehsal risklərini və xərclərini öz üzərinə götürür, lakin məhsulun satışından əldə olunan gəlirin formalaşmasında kifayət qədər üstün mövqeyə malik deyil".

"BAĞLARIN LƏĞVİ İSTEHSAL POTENSİALINI ZƏİFLƏDİR"

A. İbrahimli kiçik fermerlərin iri alıcıların tələblərinə uyğun həcmdə və standartlarda məhsul təqdim etməkdə çətinlik çəkdiyini də vurğulayır: "Müasir ticarət şəbəkələri eyni ölçüdə və rəngdə, çeşidlənmiş, qablaşdırılmış, eləcə də fasiləsiz təmin edilən məhsul tələb edir. İdxal almaları bəzi hallarda bu standartlara daha uyğun təqdim olunduğundan yerli məhsulla rəqabətdə üstünlük qazana bilir. Quba almasının təzə olması və istehlakçıya yaxınlığı üstünlükdür, lakin bu üstünlüklərin iqtisadi nəticəyə çevrilməsi üçün keyfiyyət sabitliyi, çeşidləmə və qablaşdırma standartları, eləcə də satış kanalları inkişaf etdirilməlidir".

İqtisadçı Quba almaçılığının gələcəyini qorumaq üçün xəstəliklərə davamlı sortların yetişdirilməsini, fermerlərə aqronom dəstəyin göstərilməsini, sığortanın əlçatanlığının artırılmasını və müasir saxlama-çeşidləmə mərkəzlərinin yaradılmasını vacib sayır. Ekspertin fikrincə, Quba almasının vahid brend altında təqdim edilməsi və məhsulun iri ticarət şəbəkələri, emal müəssisələri və ixracatçılarla birbaşa müqavilələr əsasında satış imkanlarının genişləndirilməsi də sahənin rəqabət qabiliyyətini artıra bilər.



BÜDCƏDƏN BÖYÜK EKRANA

Büdcədən gələn il üçün kino sənayesinə ayrılan vəsaitin miqdarı müsbət qarşılanır. Bununla belə, əsas məqsədin tək film çəkmək yox, dayanıqlı istehsal sahəsinə çevrilmək olduğu xüsusi vurğulanır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Gələn ilin dövlət büdcəsinin layihəsində Azərbaycan kinosunun inkişafı üçün ümumilikdə 12,1 milyon manat vəsait nəzərdə tutulub. Bunun 3,1 milyon manatı Kino Agentliyinin və Dövlət Film Fondunun saxlanılmasına, 9 milyon manatı isə Azərbaycan kinosunun davamlı inkişafının təmin edilməsinə yönəldiləcək.

Bəs nəzərdə tutulan maliyyə dəstəyi yeni filmlərin istehsalına, gənc kinematoqrafçıların yetişməsinə, yaradıcı heyətin imkanlarının genişlənməsinə və Azərbaycan filmlərinin beynəlxalq kino məkanında tanıdılmasına necə təsir göstərəcək?

DÖVLƏT VƏSAİTİ AYRILARKƏN...

Milli Məclisin Mədəniyyət komitəsinin üzvü Elnarə Akimova Azərbaycan kinosunun inkişafı üçün nəzərdə tutulan vəsaiti əhəmiyyətli maliyyə dəstəyi kimi qiymətləndirir. Bununla belə millət vəkili hesab edir ki, kinonun inkişafını yalnız ayrılan vəsaitin həcmi ilə ölçmək olmaz: "Əsas məsələ maliyyənin hansı layihələrə, meyarlarla və hansı nəticələrin əldə olunması məqsədilə yönəldilməsidir. Maliyyə dəstəyi özlüyündə keyfiyyətli film demək deyil. Bu vəsait düzgün idarə olunduğu, yaradıcı potensialla birləşdirildiyi və konkret hədəflərə yönəldildiyi zaman real nəticə verə bilər". Millət vəkili hesab edir ki, Azərbaycan kinosunun inkişafı üçün yalnız yeni filmlərin istehsalına diqqət yetirmək kifayət deyil: "Ssenari məktəbinin gücləndirilməsi, peşəkar rejissor və prodüserlərin yetişdirilməsi, gənc istedadların üzə çıxarılması, texniki bazanın yenilənməsi, eləcə də yayım və distribusiya imkanlarının genişləndirilməsi vacibdir. Yaxşı film çəkib onu tamaşaçıya çatdıra bilməmək də ciddi problemdir. Kino istehsalı yalnız çəkiliş meydançasında bitmir. Filmin reklamı, festivallarda iştirakı, kinoteatrlarda nümayişi, rəqəmsal platformalara çıxışı da onun uğurunun mühüm hissəsidir. Biz elə bir sistem qurmalıyıq ki, dövlət dəstəyi ilə çəkilən film arxivdə qalan layihəyə çevrilməsin, tamaşaçı ilə görüşə bilsin və öz auditoriyasını qazansın".

Deputat digər mühüm məsələ kimi şəffaf və rəqabətli maliyyələşmə mexanizmlərini qeyd edir: "Dövlət vəsaiti ayrılarkən layihələrin seçimi obyektiv ekspertiza, aydın meyarlar və peşəkar qiymətləndirmə əsasında aparılmalıdır. Gənc rejissorlara, müstəqil studiyalara və yeni istedadlara da layihələrini reallaşdırmaq imkanı yaradılmalıdır. Animasiya, uşaq filmləri, sənədli kino və debüt layihələrinə xüsusi diqqət ayrılmalıdır".

"MİLLİ KİNO YALNIZ BÜDCƏDƏN ASILI QALMAMALIDIR"

Millət vəkili hesab edir ki, milli kinonun inkişafı yalnız büdcə vəsaitindən asılı qalmamalıdır: "Dövlət dəstəyi özəl sektorun, investorların, televiziya və rəqəmsal platformaların, beynəlxalq tərəfdaşların da bu sahəyə marağını artırmalıdır. Məqsəd dövlətin maliyyələşdirdiyi bir neçə film çəkmək yox, özünü inkişaf etdirə bilən, yeni iş yerləri yaradan, istedadları ölkədə saxlayan və iqtisadi dəyər formalaşdıran kino sənayesi qurmaqdır". E.Akimovanın qənaətinə görə, ayrılan vəsait milli kinonun bütün problemlərini birdəfəlik həll etməsə də, düzgün prioritetlər müəyyənləşdirilərsə, ciddi inkişaf üçün yaxşı başlanğıc ola bilər.



"Büdcəmiz nə qədərdirsə, ona uyğun layihələr həyata keçiriləcək"

Kinodramaturq İlqar Fəhmi hesab edir ki, kino sahəsinə ayrılan vəsaitin həcmi görüləcək işlərin miqyasını müəyyənləşdirir: "Kino Agentliyinin fəaliyyəti yalnız film istehsalı ilə məhdudlaşmır. Onun fəaliyyəti çoxşaxəlidir: müxtəlif təlim və treninqlərin təşkili, beynəlxalq kinofestivallarda iştirak, ölkəmizdə keçirilən festivalların dəstəklənməsi, xarici ölkələrlə birgə layihələrin həyata keçirilməsi, eləcə də gənclərə yönəlmiş təşəbbüslərin maliyyələşdirilməsi bu fəaliyyətin əsas istiqamətlərindəndir. Bu baxımdan, vəsait nə qədər olursa, ona uyğunlaşırsan. Büdcəmiz nə qədərdirsə, Kino Agentliyi də ona uyğun layihələr həyata keçirəcək".



İlqar Fəhmi

DAHA GENİŞ AUDİTORİYAYA EHTİYAC

Ssenarist Nicat Dadaşov Azərbaycan kinosuna ayrılan vəsaitin artırılmasını müsbət qiymətləndirir. Ssenaristin fikrincə, maliyyələşmə zamanı yalnız əvvəlki illərdə vəsait ayrılan istiqamətləri davam etdirməklə kifayətlənmək olmaz: "Kino sənayesinin əhatə dairəsi genişləndirilməli, maliyyə dəstəyi təkcə film istehsalına deyil, bütövlükdə Azərbaycan kino mühitinin inkişafına yönəldilməlidir". N.Dadaşov xüsusilə yerli filmlərin xaricdə tanıdılması, beynəlxalq festivallarda Azərbaycanı təmsil edən kinematoqrafçıların sayının artırılması və yerli tamaşaçıların milli kinoya marağının bərpasını vacib hesab edir: "Azərbaycan tamaşaçısının kinoya olan marağını qaytarmaq lazımdır. Bu, təkcə filmləri kinoteatrlarda nümayiş etdirməklə bitmir. Burada televiziya, media təbliğatı, ictimai məkanlarda tanıtım da var. Azərbaycan kinosu özünə müəyyən bir platforma formalaşdırmalıdır ki, yeni filmlər istehsal olunanda həm yerli tamaşaçı, həm də xarici auditoriya onları gözləsin". Ssenarist həmçinin filmlərin tanıdılması üçün PR və marketinq fəaliyyətinə ayrıca vəsait ayrılmasının vacibliyini qeyd edir: "Çünki elə bir dövrdə yaşayırıq ki, gördüyün işin reklamı olmasa kölgədə qalacaq, tamaşaçı da ondan xəbərsiz olacaq. Hazırda əsas məqsəd yalnız filmlərin sayını artırmaq deyil, istehsal olunan ekran əsərlərinin daha geniş auditoriyaya çatdırılmasına nail olmaqdır".

TAMAŞAÇINI CƏLB ETMƏK

Kinorejissor, prodüser, "Sinema-radio" kinoradio kanalının rəhbəri Kamran Qasımovun fikrincə, dövlət dəstəyi ilə filmlətin çəkilməsi lokomotiv rolunu oynayır: "Növbəti il üçün filmlərə ayrılan məbləğ ürəkaçandır. Biz bu məbləği doğrultmağa çalışacağıq. Kino sənayesi məbləğin müsabiqələr yolu ilə xərclənməsini təmin edəcək. Bu il Azərbaycan kinosunda böyük uğurlar müşahidə etdik. Filmlərin xarici festivallarda mükafatlanmasını gördük. Bu vəsait tam şəkildə xərclənməli, tamaşaçıları cəlb edən filmlər yaratmalıdır. Bizim kontent həm bizi xaricdə tanıtmalı, həm də tamaşaçını ekrana bağlamalıdır".



Nicat Dadaşov

AVTOMOBİL BAZARINDA SEÇİMLƏR DƏYİŞİR

Avtomobil bazarında alıcıların seçimləri dəyişir. Çin markalarına maraq artır, yerli istehsal avtomobillərinin mövqeyi güclənir. İkinci əl bazarında isə mühərrik gücü 1.6 litr olan avtomobillərə tələb qalır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



"Gələn il yerli avtomobillər reytinqdə irəliləyəcək"

Avtomobil bazarında median qiymət artsa da, bu, real bahalaşmadan deyil, satışa çıxarılan avtomobillərin tərkibinin dəyişməsindən qaynaqlanır. Azərbaycan Qiymətləndiricilər Palatasının (AQP) məlumatına görə, bu ilin oktyabr ayında avtomobillərin median qiyməti 3,7 faiz artaraq 19 500 manata çatıb. Lakin eyni dövrdə sabit struktur indeksi cəmi 0,4 faiz yüksəlib, sentyabr və oktyabr aylarında satışda qalan avtomobillərin orta qiyməti isə 1,5 faiz azalıb. Oktyabrda avtomobil elanlarının sayı yeddi faiz azalaraq 37 531-ə düşüb. Təkliflərin 51,2 faizi 20 min manatdan ucuz avtomobillərdir. Bəs elanlardakı bu mənzərə real alqı-satqıda da özünü göstərirmi? Hazırda azərbaycanlılar hansı avtomobillərə üstünlük verir? Çin istehsalı avtomobillərə marağın artması ənənəvi markaların mövqeyinə necə təsir edir? Yaxın dövrdə bazarda hansı dəyişikliklər gözlənilir?

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının İdarə Heyətinin sədri Eyyub Əliyevin sözlərinə görə, son 10 ayın göstəricilərinə əsasən, bazarda birinci və ikinci yerləri Çin markaları tutur: "Üçüncü yerdə Yaponiya, dördüncü yerdə Koreya markaları, beşinci yerdə isə yerli istehsal avtomobilləri qərarlaşıb. İnsanlar əsasən ucuz və qənaətcil, aşağı və orta gəlirli təbəqənin ala biləcəyi avtomobillərə üstünlük verirlər. Çin markalarından "Changan" və BYD bu baxımdan diqqət çəkir. Daha çox keyfiyyətə, inama və etibarlılığa önəm verən insanlar isə Yaponiyanın "Toyota" markasına üstünlük verirlər. Koreyanın "Hyundai" markası da etibarlılığına görə alıcıların seçimində yer alır".

"BU ŞƏXSLƏR YERLİ İSTEHSALA ÜSTÜNLÜK VERİRLƏR"

E.Əliyev bildirdi ki, yerli istehsalın gücünün artması və ilk beşliyə daxil olması sevindirici haldır. Burada utilizasiya prosesinin də təsiri var: "Avtomobillərini utilizasiyaya verərək yeniləyən şəxslər yerli istehsal avtomobillərinə üstünlük verirlər. Bu avtomobillərin qiymətlərinin əlverişli olması, satış salonlarında kredit imkanlarının və şərtlərinin əlçatanlığı da onlara marağı artırır. Həmçinin yerli yığım avtomobillərinin servis xidmətləri gündən-günə inkişaf edir, ehtiyat hissələri daha əlçatan olur. Bütün bu amillər yerli istehsalın bazardakı mövqeyinin güclənməsinə şərait yaradır".

Elan saytlarında "Mercedes" və "Hyundai" kimi markaların avtomobillərinin satışa çıxarılmasına gəlincə, sədr deyir ki, burada söhbət əsasən köhnə avtomobillərdən gedir: "İnsanlar köhnə avtomobillərini sataraq onları daha yeni, innovativ və qənaətcil nəqliyyat vasitələri ilə əvəzləməyə çalışırlar. Bu səbəbdən elan saytlarında köhnə, mühərrik həcmi böyük olan avtomobillərin kütləvi şəkildə satışa çıxarıldığını görürük. Bu, həmin avtomobillərə marağın azalmasından xəbər verir. Təbii ki, onların da öz həvəskarları var. Lakin hazırkı iqtisadi vəziyyəti nəzərə alsaq, insanlar daha çox qənaətcil, az yanacaq sərf edən, o cümlədən hibrid avtomobillərə üstünlük verirlər. Hətta büdcələrinə qənaət etmək məqsədilə ikinci əl hibrid avtomobillər alanlar da var".



Eyyub Əliyev

Gələcəkdə markaların bazardakı mövqeyinin dəyişməsinə gəlincə, E.Əliyev 2027-ci ildə yerli istehsalın mövqeyinin daha da güclənəcəyini düşünür: "Çünki yerli istehsalın gücü gündən-günə artır, sənaye zonalarında yeni istehsal müəssisələri fəaliyyətə başlayır və bu avtomobillərə inam da yüksəlir".

"ALQI-SATQI O QƏDƏR DƏ İNTENSİV DEYİL"

Avtomobil bazarı üzrə ekspert Sərxan Qədirov bildirdi ki, son dövrlər avtomobil bazarında müəyyən canlanma müşahidə olunsa da, indi bu aktivlik bir qədər zəifləyib: "Hazırda bazarda alqı-satqı əvvəlki dövrlə müqayisədə o qədər də intensiv deyil. Çin avtomobillərinə tələbat var. Hazırda avtomobil bazarı üç-beş il əvvəlki bazardan xeyli fərqlənir. İndi alıcının əlində 20-25 min, hətta 30 min manat büdcə olduqda, yeni avtomobil almaq imkanı var. Üstəlik, bu avtomobillər lizinq yolu ilə, nisbətən aşağı ilkin ödənişlə də təklif olunur. Buna görə də ilkin ödəniş üçün məhdud büdcəsi olan alıcılar Çin avtomobillərinə üstünlük verirlər. Bu avtomobillərin qiymətində artım baş verdikdən sonra insanlar qiymətlərin daha da yüksələ biləcəyini düşünərək onlara daha çox maraq göstərməyə başladılar".

"İkinci əl qiymətinə yeni avtomobil alırlar"

S.Qədirovun sözlərinə görə, Çin avtomobilləri elə qiymətlərə təklif olunur ki, alıcı həmin məbləğə ikinci əl bazarından 100 min, 200 min, hətta 250-300 min kilometr yürüşü olan avtomobil ala bilər: "Bu zaman alıcı düşünür ki, yüksək yürüşlü, istismar olunmuş avtomobil almaqdansa, eyni məbləğə yeni avtomobil əldə etmək daha məqsədəuyğundur. Lakin heç kim beş ildən sonra, avtomobil 100 min və ya 200 min kilometr yürüşə çatdıqda onu hansı problemlərin gözləyəcəyini dəqiq bilə bilməz. Sürücülər müəyyən texniki çətinliklərlə üzləşə, ehtiyat hissələrinin tapılmasında problemlər yaşaya bilərlər".

"BU AVTOMOBİLLƏR ALICILAR ÜÇÜN CƏLBEDİCİDİR"

Ekspertin fikrincə, ikinci əl avtomobil bazarında son dövrlərdə ən çox satılan avtomobillər arasında "Chevrolet" markasının Amerika istehsalı modelləri var. Əsasən qiyməti 20 min manat civarında və ya ondan aşağı olan "Chevrolet Equinox" krossoverlərinə tələbat müşahidə olunur: "Bununla yanaşı, "Ford Fusion" və "Malibu" modelləri də alıcıların marağındadır. Son vaxtlar "Kia K5" və "Hyundai Sonata" modellərinə də üstünlük verənlərin sayı artıb. Xüsusilə 1,6 litrlik mühərrikə malik avtomobillər gömrük rüsumlarının daha aşağı olması səbəbindən alıcılar üçün cəlbedicidir".



Sərxan Qədirov

KARTDAN-KARTA KÖÇÜRMƏLƏR RİSK MƏNBƏYİ KİMİ

Tətbiq edilən məhdudiyyətlər də kartdan-karta köçürmələrin həcmində ciddi azalmalara səbəb olmur. Ekspertlər məhdudlaşdırmaların daha da ciddiləşdirilməsini təklif edirlər.

SEVİNC ABBASOVA

Azərbaycanda kartdan-karta köçürmələrin həcminin sürətlə artması Mərkəzi Bankın narahatlığına səbəb olub. Mərkəzi Bankın sədri Taleh Kazımov 2025-ci ildə bu əməliyyatların həcminin 66 milyard manata çatdığını, 2026-cı ilin avqust ayına qədər isə 48 milyard manat təşkil etdiyini açıqlayıb. Onun sözlərinə görə, bu qədər böyük dövriyyəni yalnız vətəndaşlar arasında şəxsi pul köçürmələri ilə izah etmək mümkün deyil. T. Kazımov bəzi əməliyyatların vergidən yayınma, qanunsuz mərc oyunlarının təşkili və digər qeyri-qanuni fəaliyyətlərlə əlaqəli olduğunu bildirib. Məhz bu riskləri nəzərə alaraq bank sektorunda kartlara gündəlik beş mədaxil əməliyyatı və aylıq 20 min manat limitinin tətbiqi dəstəklənib. Bəs kartdan-karta köçürmələrin bu qədər böyük həcmdə olması maliyyə sistemi üçün hansı riskləri yaradır?

VERGİDƏN YAYINMA RİSKİ ARTIR

İqtisadçı-ekspert Xalid Kərimli hesab edir ki, kartdan-karta köçürmələrin iqtisadi mahiyyət baxımından nağd pulun əlbəəl verilməsindən ciddi fərqi yoxdur. Onun sözlərinə görə, bir şəxs digərinə 100 manat nağd pul verdikdə bu əməliyyat necə rəsmiləşdirilmədən həyata keçirilə bilirsə, kartdan-karta köçürmə zamanı da eyni vəziyyət yarana bilər. Bu baxımdan, əsas məsələ pulun hansı formada ötürülməsi deyil, əməliyyatın iqtisadi mahiyyəti və vergitutma baxımından necə rəsmiləşdirilməsidir.

Ekspert bildirib ki, kartdan-karta köçürmələr banklar üçün də xüsusi gəlir mənbəyi hesab olunmur. Belə əməliyyatlarda bankların gəlirləri məhdud olur, müəyyən məbləğədək köçürmələr komissiyasız həyata keçirilir, limit aşıldıqda isə xidmət haqqı tətbiq edilir.

X. Kərimlinin fikrincə, hazırda tətbiq edilən məhdudiyyətlərin əsas səbəblərindən biri fiziki şəxslərin şəxsi bank kartlarından sahibkarlıq fəaliyyəti və vergidən yayınma məqsədilə istifadə edilməsinin qarşısını almaqdır. O qeyd edib ki, bank sektorunda tətbiq olunan qaydalara əsasən, adi debet və kredit kartlarına gündəlik beşdən artıq mədaxil əməliyyatı və ay ərzində 20 min manatdan çox vəsait daxil olması standartdan kənar hal kimi qiymətləndirilir. Lakin vətəndaş banka müraciət edərək əməliyyatlarının mahiyyətini əsaslandıra bilsə, bu məhdudiyyətlər aradan qaldırıla bilər. Söhbət VÖEN-ə bağlı biznes kartlarından deyil, fiziki şəxslərin şəxsi kartlarından gedir.



MƏHDUDİYYƏTLƏR QEYRİ-RƏSMİ DÖVRİYYƏNİ AZALDACAQMI?

Ekspert hesab edir ki, Mərkəzi Bank və bank sektoru vergidən yayınma hallarının geniş yayılması üçün əlverişli şəraitin qalmasında maraqlı deyil. Onun sözlərinə görə, ölkədə əhalinin orta gəlirləri və adambaşına düşən ümumi daxili məhsul göstəriciləri məlumdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan adi vətəndaşın hesabına hər ay 20 min manatdan artıq vəsait daxil olmasının iqtisadi əsaslandırılması suallar doğurur.

X. Kərimli digər risk kimi qanunsuz sahibkarlıq fəaliyyətini, qumar və mərc oyunlarını, eləcə də onlayn kazinolarla əlaqəli pul köçürmələrini göstərib. Onun fikrincə, tətbiq edilən məhdudiyyətlər bu cür qeyri-qanuni maliyyə əməliyyatlarının qarşısının alınmasına xidmət edir.

Ekspert hesab edir ki, yeni qaydalar kartdan-karta köçürmələrin ümumi dövriyyəsinin artımını məhdudlaşdıracaq. Bununla belə, vergidən yayınmaq istəyən şəxslərin müxtəlif banklardan və başqa insanların adlarına kartlar əldə etməklə mövcud məhdudiyyətləri aşmağa çalışdıqlarını da istisna etmir. Belə ki, hazırkı qaydalar hər bank üzrə kartlara tətbiq edildiyindən, bir şəxsin müxtəlif banklarda kart açdıraraq əməliyyatlarını bölüşdürməsi mümkündür.

Bununla belə, X. Kərimli hesab edir ki, bu üsul da sonsuz imkan yaratmır və müəyyən mərhələdə öz məhdudiyyətinə çatacaq.


Xalid Kərimli

"BİR ŞƏXSİN ADINA OLAN KART SAYINA DA MƏHDUDİYYƏT QOYULMALIDIR"

Bank məsələləri üzrə ekspert Emin Kərimov da hesab edir ki, kartdan-karta köçürmələrin həcminin bu qədər artması arzuolunan hal deyil. Onun fikrincə, bu göstəricilər kart əməliyyatlarının yaratdığı rahatlıq və mövcud nəzarət mexanizmlərindəki boşluqlardan bəzi sahibkarlıq subyektlərinin, xüsusilə kiçik və orta biznes nümayəndələrinin vergidən yayınmaq məqsədilə istifadə etdiyini göstərir.


Emin Kərimov

E. Kərimov bildirib ki, kartdan-karta əməliyyatlara gündəlik say və aylıq məbləğ limiti tətbiq edilməsi ilə yanaşı, bir şəxsin adına açılan kartların sayına da məhdudiyyət qoyulmalıdır. Çünki mövcud qaydalar əməliyyatların alternativ yollarla davam etdirilməsinə imkan yaradır. Belə ki, şəxs öz adına müxtəlif banklardan, eləcə də yaxınlarının adına əlavə kartlar əldə etməklə müəyyən edilmiş limitləri faktiki olaraq aşa bilər.

Ekspertin sözlərinə görə, bəzi hallarda geniş filial şəbəkəsinə malik banklardan müxtəlif filiallar vasitəsilə çoxsaylı debet kartları sifariş etməklə də məhdudiyyətlərdən yayınmaq mümkündür. Bu baxımdan, yalnız əməliyyat sayına limit qoyulması gözlənilən nəticəni verməyə bilər.

E. Kərimov hesab edir ki, problemin həlli üçün bir şəxsin adına olan bütün kartlar üzrə əməliyyatlar vahid sistemdə birləşdirilməli, aylıq 20 min manatlıq limit fərdi qaydada hesablanmalıdır. Yəni vətəndaşın neçə bankda və neçə kartı olmasından asılı olmayaraq, ümumi dövriyyəsi nəzərə alınmalıdır. Limitin aşılması halında isə müvafiq nəzarət mexanizmləri işə düşməli, əməliyyatın xarakterindən asılı olaraq vergi orqanları tərəfindən araşdırma aparılmalıdır.

Ekspert əlavə edib ki, kartdan-karta köçürmələrdən istifadənin məhdudlaşdırılması ilə yanaşı, sahibkarların alternativ ödəniş vasitələrinə yönləndirilməsi də vacibdir. Bunun üçün POS-terminalların, mobil POS və QR ödənişlərinin təşviqi, banklar və elektron pul təşkilatları tərəfindən maarifləndirmə işinin gücləndirilməsi zəruridir.

QALSTUK VƏ MİLAD MÖCÜZƏSİ İLƏ TANINAN ŞƏHƏR

Zaqreb Xorvatiyanın özünəməxsus atmosferi ilə fərqlənən ən böyük şəhəridir. Paytaxt şəhəri təkcə ölkənin siyasi və iqtisadi ürəyi deyil, həm də ən vacib mədəniyyət mərkəzi hesab edilir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakıdan Slovakiyaya birbaşa hava reysinin açılması Xorvatiya kimi ətraf ölkələrə də səyahəti asanlaşdırıb.

Xorvatiyanın paytaxtı Zaqrebə çatmağın müxtəlif yolları var, çünki şəhər region üçün vacib nəqliyyat mərkəzidir. Xarici turistlər üçün ən sürətli və ən populyar seçim hava yoludur, lakin geniş dəmir yolu və avtomobil şəbəkəsi də rahat marşrutlar təklif edir. Vyana-Slovakiya-Zaqreb marşrutu ən əlverişli marşrutlardandır.

ÖZÜNƏMƏXSUS ATMOSFERİ İLƏ FƏRQLƏNƏN ŞƏHƏR

Zaqreb - Xorvatiyanın özünəməxsus atmosferi ilə fərqlənən ən böyük şəhəridir. Paytaxt şəhəri təkcə ölkənin siyasi və iqtisadi ürəyi deyil, həm də ən vacib mədəniyyət mərkəzi hesab edilir. Tarixi memarlığı, tramvaylarla dolu küçələri, kiçik kafeləri, yaşıllıq zonaları və canlı şəhər həyatı ilə küçələrindəki çoxsaylı turistlərdən hiss olunur ki, Xorvatiyanın paytaxtı həm turistlərin, həm də yeni səyahət axtarışında olan əcnəbilərin diqqətini cəlb edir. Görməli yerləri və zəngin tarixindən başqa, Zaqrebdə onu səyahətçilər üçün daha cəlbedici edən maraqlı detallar və unikal ənənələr gizlənir.

Zaqreb Bələdçilər Assosiasiyasının prezidenti Tin Hrastnik şəhərlə tanışlıq üçün bizə bələdçilik edərək deyir ki, turizm ölkənin əsas gəlir mənbəyidir. Lakin Zaqrebin turizm profili Dubrovnik və Split kimi dənizkənarı kurortlardan fərqlənir. Zaqrebin üstünlüklərindən biri odur ki, mövsümi asılılıq sahil şəhərlərinə nisbətən daha aşağıdır.

Zaqreb Milad turizmi ilə Avropada kifayət qədər məşhur şəhərdir. Xüsusən yeni il ərəfəsində turistlər bu şəhəri seçir. Şəhərin turizm həyatında mühüm yer tutan "Advent Zagreb" tədbiri hər il noyabrın sonundan yanvarın əvvəlinədək keçirilir. Artıq şəhərin küçələrində bayram hazırlıqları başlanıb. Bu müddətdə şəhərin mərkəzi meydanları, parkları və küçələri bayram ab-havasına bürünür. Milad yarmarkaları, əl işləri və suvenirlərin satışı, yerli mətbəxin təqdimatı, konsertlər, açıq hava əyləncələri və buz meydançaları turistlər üçün xüsusi proqram yaradır. "Zaqrebin Milad turizmi üzrə tanınması təsadüfi deyil. 2016–2018-ci illərdə "European Best Destinations" təşkilatının keçirdiyi səsvermədə ardıcıl üç dəfə Avropanın ən yaxşı Milad yarmarkası keçirən şəhəri seçilib. Bu uğur şəhərin turizm imicinin formalaşmasına ciddi töhfə verib. Turist axınının artması hotellərin, restoranların, kafelərin, nəqliyyat və ticarət obyektlərinin fəaliyyətinə müsbət təsir göstərir. Eyni zamanda, bayram mövsümündə xidmət sektorunda əlavə iş yerləri yaranır", - deyə bələdçimiz məlumat verir.

XORVATİYA DEYƏNDƏ İLK AĞILA GƏLƏN LUKA MODRİÇ OLUR

Futbolsevərlər üçün Xorvatiya deyəndə ilk ağıla gələn Luka Modriç olur. Xorvatiya millisinin və İspaniyanın "Real" klubunun əfsanəvi oyunçusuna ölkədə az qala büt kimi baxırlar. Zaqreb onun doğulduğu şəhər olmasa da, yerli "Dinamo"da oynadığı şəhərdir. Şəhərin bütün suvenir dükanlarında futbolçunun 10 nömrəli futbol köynəyi və suvenirləri satılır. Küçələrin divarlarından, restoran və kafelərdən onun şarjları boylanır. Modriç ölkəsini dünyada kifayət qədər tanıda və sevdirə bilib. Buna görə də xorvatlar ona çox minnətdardır.

MİQRANTLAR GÖZƏ DƏYMİR

Xorvatiya xarici vətəndaşları iş, təhsil və digər qanuni əsaslarla qəbul edir. Ölkədə qanunsuz miqrasiyaya və yaşayış qaydalarının pozulmasına qarşı ciddi nəzarət mövcuddur. Zaqreb Avropanın miqrantların rast gəlinmədiyi azsaylı şəhərlərindəndir. Ölkə miqrantlara qarşı münasibətində sərt siyasət yürüdür. "Qanunsuz gələn miqrantları dərhal deport edirlər", - deyə bələdçimiz bildirir. Digər tərəfdən, Xorvatiya xarici işçilərə ehtiyac duyur. 2026-cı il mayın 16-da Xorvatiya parlamenti əcnəbilərin ölkədə yaşaması və işləməsi ilə bağlı qanunvericiliyə dəyişikliklər qəbul edib. Yeni qaydalara əsasən, xarici işçilər yaşayış və iş icazəsini uzatmaq üçün bir il ərzində xorvat dilinin A1.1 səviyyəsində imtahandan keçməlidirlər.

Zaqrebdə gəzərkən ölkənin çox da zəngin olmaması hiss olunur. Tarixi binalarla, modern tikililərlə yanaşı bəzi küçələr postsovet dövrünü xatırladır. Burada yaşamağın əsas problemləri mənzil kirayəsi və gündəlik xərclərdir. Öz mənzili olan ailələrlə kirayədə yaşayanların maddi imkanları arasında ciddi fərq var.

Yerli sakinlərin gündəlik həyatında ictimai nəqliyyatdan istifadə, supermarketlərdən alış-veriş, parklarda istirahət və ailəvi vaxt keçirmək mühüm yer tutur. Şəhərdə sosial infrastruktur və xidmətlər genişdir. Maaşlar Xorvatiyanın digər bölgələri ilə müqayisədə yüksək olsa da, xüsusilə kirayədə yaşayanlar üçün büdcəni düzgün planlaşdırmaq vacibdir. "Orta əməkhaqqı 1500-1700 avro arasında dəyişir. Lakin orta aylıq maaş hər kəsin bu məbləği alması demək deyil. Peşə və ixtisasdan asılı olaraq gəlirlər ciddi fərqlənir. Gənclərin çoxu iş dalınca Almaniya, İrlandiyaya gedirlər".

QALSTUK, FUNİKULYOR, TOP SƏSİ, LAMPALAR...

Bu gün dünyanın ən məşhur aksessuarlarından biri hesab edilən qalstukun tarixi Xorvatiya ilə bağlıdır. Küçələrdə ayrıca qalstuk satan mağazalar çoxdur. 18 oktyabr ölkədə Qalstuk Günü kimi qeyd olunur. Bu ənənə qalstukun Xorvatiyanın mədəni irsindəki yerini göstərir.

Aşağı və Yuxarı şəhərləri birləşdirən "Zaqreb Funikulyoru" dünyanın ən qısa ictimai funikulyorlarından biridir. Onun səyahət uzunluğu cəmi 66 metrdir və səyahət təxminən 64 saniyə çəkir. Yuxarı hissədən şəhərin möhtəşəm görünüşünü seyr etmək mümkündür.

Zaqreb hələ də orijinal lampa yandıranlarla qarşılaşa biləcəyiniz azsaylı Avropa şəhərlərindən biridir. Hər axşam Yuxarı Şəhərdə antik qaz fənərlərini əl ilə yandırırlar və küçələri keçmişin sehrli atmosferinə qərq edirlər.

Daha bir maraqlı məqam hər gün günorta saatlarında Lotrscak Qülləsindən top səsinin eşidilməsidir. Əsrlər boyu davam edən bu ənənə şəhərin qəhrəmanlıq keçmişini xatırlamaqla yanaşı, həm də yerli sakinlər üçün zaman siqnalı rolunu oynayır.















Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
21 NOYABR ŞƏNBƏ 2026
www.kaspi.az

Emin Mahmudov yığmamızın tarixində ən məhsuldar oyunçudur. O, millidə ümumilikdə 66 oyun keçirib və 16 qol vurub. Mahmudov uzun illərdən sonra bu göstərici ilə Qurban Qurbanovu "taxtdan salmağı" bacarıb.

KAPİTANIN TARİXƏ ÇEVRİLƏN HEKAYƏSİ



Futbol üzrə Azərbaycan milli komandası UEFA Millətlər Liqasının cari mövsümündə çıxışını başa vurdu. Yığmamız D Liqasının qrupunda birinci yeri tutaraq turnirdəki minimal tapşırığın öhdəsindən gəldi. Bu qarşılaşmalar başqa bir hadisə ilə də yadda qaldı. Uzun illər milli komandanın formasını geyinmiş, yığma tarixinin ən yaxşı bombardiri və kapitanı Emin Mahmudov millidəki son rəsmi oyunlarını məhz bu turnirdə keçirdi. Onun yığma ilə vidası isə Andorra ilə səfərdə keçirilən yoldaşlıq görüşü oldu.

SEÇİM QARŞISINDA

Emin Mahmudovun karyerası tamamilə fərqli alına da bilərdi. Əslən Saatlıdan olan futbolçu karyerasına Rusiyada başlamış, Moskva "Spartak"ı, "Saturn", "Tom", "Krılya Sovetov" kimi klublarda çıxış etmişdi. Üstəlik, Rusiyanın U-21 yığmalarına qədər aşağı yaş komandalarının formasını da geyinmişdi. Başqa sözlə, əslində onun futbol yolunu Rusiyanın əsas millisinə qədər davam etdirmək ehtimalı da var idi.

Ancaq 2016-cı ildə 24 yaşı olarkən Emin başqa seçim etdi. Azərbaycan millisinə dəvət alan oyunçu doğma ölkəsinin formasını geyinməyə qərar verdi. Milli komandada debütünü həmin il sentyabrın 4-də San-Marino ilə oyunda etdi. İlk vaxtlardan texniki keyfiyyətləri, meydanı görmək bacarığı və oyun quruculuğu ilə seçilən yarımmüdafiəçi qısa müddətdə komandanın əsas simalarından birinə çevrildi.

ƏVƏZEDİLMƏZ FİQUR

Emin Mahmudovun milliyə gəlişini yeni dövrün başlanğıcı adlandırmaq çətindir. Amma onun komandaya fərqli keyfiyyətlər qazandırdığı danılmazdır. Robert Prosineçkinin rəhbərliyi altında yığmanın dünya çempionatının seçmə mərhələsində 10 xal topladığı, Norveç və Çexiya kimi rəqiblərlə layiqli şəkildə mübarizə apardığı dövrdə Emin də əsas heyətin üzvlərindən idi.

Sonrakı illərdə baş məşqçilər dəyişsə də, onun komandadakı rolunun inkişaf trayektoriyası əsasən üzüyuxarı oldu. Xüsusilə Canni de Byazinin rəhbərliyi dövründə Mahmudovun liderliyi daha aydın nəzərə çarpırdı. Həmin vaxt milli komanda ardıcıl qələbələrlə yadda qalan uğurlu seriyaya imza atdı. Emin isə kollektivin əvəzedilməz fiqurlarından idi.

Milli komandanın bombardiri

Yarımmüdafiçi olsa da, əsasən komanda yoldaşlarını əlverişli mövqelərə çıxarması ilə fərqlənsə də, Mahmudovun qol vurmaq bacarığı kifayət qədər yüksəkdir. Təsadüfi deyil ki, o yığmamızın tarixində ən məhsuldar oyunçudur. Emin millidə, ümumilikdə 66 oyun keçirdi və 16 qol vurdu. Uzun illər yığmanın bombardirlər siyahısında 14 qolla Qurban Qurbanov əlçatmaz olsa da, Mahmudov onu "taxtdan salmağı" bacardı. Düz 21 il toxunulmaz qalan bu göstəricini Ukraynaya qarşı 2026-cı il dünya çempionatının seçmə mərhələ oyununda penaltini dəqiq yerinə yetirən Emin yenilədi. Sonradan hesabına daha bir qol əlavə edən kapitan göstəricisini 16-ya çatdırdı.

Karyerasını davam etdirən oyunçular arasında Mahmudova ən yaxın ad 10 qolla Ramil Şeydayevdir. Lakin son zamanlar onun yığmadan kənarda qalması Eminin rekordunun yaxın illərdə yenilənməsinin asan olmayacağını deməyə əsas verir.

DÜNYANIN DANIŞDIĞI QOL

Eminin millidəki ən yaddaqalan anlarından biri İsveçlə qarşılaşmada vurduğu qoldur. 2023-cü ildə Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən Avropa çempionatının seçmə mərhələ oyununda Azərbaycan millisi İsveçə 3:0 hesabı ilə qalib gəlmişdi. Avropa və dünya çempionatlarının daimi iştirakçılarından olan rəqibə qarşı bu nəticə özü-özlüyündə böyük hadisə idi. Həmin görüşdə iki dəfə fərqlənən Eminin 89-cu dəqiqədə vurduğu qol isə uzun müddət yaddaşlardan silinməyəcək. Qapıçı Şahruddin Məhəmmədəliyevin ötürməsindən sonra o, demək olar ki, meydanın mərkəzindən zərbə endirərək rəqib qapıçı Robin Olseni "ovladı". Yaşıl meydanlarda nadir görülən həmin qol gözəlliyi ilə azarkeşləri valeh etmişdi. Təsadüfi deyil ki, dünyanın bir sıra media qurumlarında, sosial şəbəkələrdə dəfələrlə paylaşıldı, çarxların bəzəyinə çevrildi.

Alicənab oğlan

Emin barədə danışarkən futbolçu keyfiyyətləri ilə yanaşı, xarakterini də qeyd etmək lazımdır. O, illər ərzində sakit davranışı, intizamı və peşəkar münasibəti ilə seçildi. Müasir futbolda bir oyunçunun qalmaqallardan uzaq qalması, yalnız oyunu ilə gündəmə gəlməsi nadir tapıntılardandır. Əlbəttə, Mahmudovun da karyerasında çətin dönəmlər, narazılıqlar və mübahisəli qərarlar oldu. "Neftçi"də kapitanlıq sarğısının bir müddət əlindən alınması onun ümumi performansına təsir etsə də, üzərinə düşən işi yerinə yetirməyə davam etdi. Meydandan kənarda da alicənablığı ilə diqqət çəkən kapitan həm azarkeşlərə, həm media nümayəndələrinə isti münasibət göstərdi.

Əslində, belə bir futbolçunun millidəki son oyununun doğma azarkeşlərin qarşısında keçirilməsini arzulayanlar az deyil. Ancaq vida Andorrada, evindən uzaqda baş tutdu. Sanki elə Eminin xarakterinə uyğun alındı. Sakit, təmtəraqdan uzaq... Andorra ilə qarşılaşma onun üçün 66-cı və sonuncu oyun idi. Görüşdən əvvəl AFFA-nın baş katibi Cahangir Fərəcullayev futbolçuya üzərində 66 nömrəsi olan xatirə forması təqdim etdi. Emin meydana kapitan kimi çıxdı, 65-ci dəqiqədə isə əvəzləndi. Azərbaycan millisi həmin görüşdə 3:1 hesabı ilə qalib gəldi. Beləliklə, kapitan yığma karyerasını qələbə ilə başa vurdu.

"AĞ-QARA" SEVGİ

Millidəki karyerası başa çatsa da, Emin Mahmudov hələlik futboldan ayrılmır. 34 yaşlı futbolçu üçün növbəti hədəf sevimli klubu "Neftçi" ilə bağlıdır. 2017-ci ildən "ağ-qara" formanı geyinən yarımmüdafiəçi azarkeşlərin sevimli oyunçularından biridir. Hətta Qurban Qurbanovdan "Qarabağ"a keçmək təklifi aldığı vaxtlarda belə "Neftçi"yə sadiq qalmağı seçən kapitan davranışı ilə bu münasibətə layiq olduğunu sübut edib. Bu sədaqətin qarşılığında çoxsaylı titullar qazanmasa da, Ağdam klubunun hegemon olduğu dövrdə bir dəfə çempionluq sevinci yaşayıb. İndi isə Mahmudov "Neftçi" kapitanı kimi daha bir titula köklənib. Komanda cari mövsümün lideridir və qızıl medallara əsas iddiaçılardandır. 90 illik yubileyini qeyd etməyə hazırlaşan "flaqman"da belə bir uğur karyerasının qürub çağlarını yaşayan Mahmudovun da kolleksiyasına yaxşı bəzək ola bilər.